QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 210 (5930) **14 noyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir"



Səh 6

6

**2020-ci ilin dövlət büdcəsi haqqında qanun layihəsi birinci oxunuşda qəbul edilib**



10

**"Azərbaycanın mötəbər təşkilatlarda yüksək mövqeyə sahib olması bir reallıqdır"**



10

**Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Sergey Lavrovun fikirləri ilə bağlı bəyanat yayıb**



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

14 noyabr 2019-cu il

# "Azərbaycan çox etibarlı və önəmli tranzit ölkəyə çevrilib"

## *Prezident İlham Əliyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədrini qəbul edib*

***Prezident İlham Əliyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovu qəbul edib. AZƏRTAC xəbər verir ki, son illər Azərbaycanın dəmir yollarında görülən işlər və qarşıda duran vəzifələrdən danışan Prezident İlham Əliyev bildirib ki, Azərbaycanda bütün nəqliyyat infrastrukturu yeniləşir, müasirləşir:***



-Son illər dəmir yolu infrastrukturuna böyük investisiyalar qoyulur. Bu investisiyalar hesabına dəmir yolu infrastrukturu böyük dərəcədə inkişaf etmişdir. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında dəmir yollarının səviyyəsinə və keyfiyyətinə görə Azərbaycan dünya miqyasında 34-cü yerdədir. Bu, kifayət qədər yüksək göstəricidir, son illərdə aparılan işlərin təzahürüdür. Onu da əlavə etməliyəm ki, nəqliyyat infrastrukturunun səviyyəsinə görə biz dünyada 31-ci yerdəyik. Yəni, Azərbaycanda bütün nəqliyyat infrastrukturu yeniləşir, müasirləşir, keçən il yeni dəniz ticarət limanı, 2017-ci ildə Bakı-Tbilisi-Qars tarixi dəmir yolu istifadəyə verilib, daxili dəmir yolları müasirləşir. Bir sözlə, Davos hesabatında bizim yüksək yerə malik olmağımız reallığı əks etdirir. Ancaq bununla paralel olaraq biz gələcəkdə bu sahəyə daha böyük diqqət göstərməliyik. Çünki ölkəmizin uğurlu inkişafı, o cümlədən nəqliyyat infrastrukturundan asılıdır.

Bu gün Azərbaycan etibarlı tranzit ölkə kimi öz xidmətlərini göstərir. Ümumi rəyə görə, - bu, beynəlxalq təşkilatların hesabatında da əks olunur, - Azərbaycan çox etibarlı və önəmli tranzit ölkəyə çevrilibdir. Mən dəfələrlə demişəm ki, hər bir ölkənin öz tranzit potensialını inkişaf etdirmək üçün, ilk növbədə, qonşu ölkələrlə yaxşı münasibətləri olmalıdır və bu gün bu, reallıqdır. Təkcə son bir-iki ay ərzində mənim dörd qonşu ölkənin rəhbərləri - Rusiya Prezidenti, Türkiyə Prezidenti, İran Prezidenti və Gürcüstanın Baş Naziri ilə görüşlərim olubdur. Bu görüşlərdə, o cümlədən bizim nəqliyyat sahəsində əməkdaşlığa da kifayət qədər böyük vaxt ayrılmışdır. Bir sözlə, bizim tranzit potensialımız gələcəkdə qeyri-neft sektorunun inkişafına daha da böyük dərəcədə xidmət göstərəcək. Bu gün də qeyri-neft sektorunun ümumi daxili məhsuldakı payının çoxaldılması istiqamətində nəqliyyat sektorunun rolu artmaqdadır. Biz hazırda Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarından daha geniş miqyasda istifadə edirik, keçən il təqribən 300 min tona yaxın yük daşınmışdır. Önəmli məsələ ondan ibarətdir ki, biz artıq təkcə Asiya ölkələrindən gələn yüklərlə kifayətlənmirik, eyni zamanda, Avropa məkanında da fəal əməkdaşlıq edirik və bəzi Avropa ölkələrinin bu yoldan istifadə etməsi artıq reallığa çevrilib. Biz artıq Çindən konteyner qatarları qəbul etməyə başlamışıq. Çin-Qazaxıstan-Azərbaycan-Avropa dəhlizi fəaliyyət göstərir. Eyni zamanda, son müddət ərzində Əfqanıstan-Türkmənistan-Azərbaycan-Avropa istiqamətinə yüklər daşınır. Biz Lapis-Lazuli dəmir yolu ilə Bakı-Tbilisi-Qars dəmir yolunu birləşdirə bilmişik. Bu da böyük imkanlar yaradır. Mənim Orta Asiya respublikalarının prezidentləri ilə keçirdiyim görüşlər əsnasında dəmir yolu daşınmaları haqqında kifayət qədər geniş fikir mübadiləsi aparılmışdır. Hazırda Özbəkistan və Tacikistanla bizim dəhlizimizdən istifadə imkanlarını müzakirə edirik və əminəm ki, bu istiqamətdə də uğurlar əldə olunacaq.

Yəni, onu demək istəyirəm ki, vaxtilə Azərbaycanın təşəbbüsü ilə başlanan və bizim böyük maliyyə dəstəyimizlə reallaşan Bakı-Tbilisi-Qars dəmir yolu çox mühüm əhəmiyyət daşıyır. Mən əvvəllər də, biz dəmir yolunun təməlini qoyanda da bunu demişəm ki, bu layihə dünyanın nəqliyyat xəritəsini yenidən tərtib edir və bu layihə açıq dənizə çıxışı olmayan Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirəcəkdir. Eyni zamanda, biz Şimal-Cənub nəqliyyat dəhlizinə də çox böyük diqqət yetirmişik. Azərbaycan ərazisində bütün işlər yekunlaşıb, o cümlədən İran sərhədinə qədər uzanan dəmir yolunun tikintisi də artıq 2 ildir ki, tamamlanıb. O cümlədən dəmir yolu körpüsü tikilib və hazırda Şimal-Cənub nəqliyyat dəhlizi işləyir. 2018-ci ildə bu dəhlizlə daşınan yüklərin həcmi 8 dəfə, bu ilin 9 ayında daha 70 faiz artmışdır. Yəni, böyük potensial var və eyni zamanda, Şimal-Qərb nəqliyyat dəhlizi işləyir. Rusiyadan, həmçinin İrandan gələn yüklər Qərb istiqamətinə Azərbaycan ərazisindən daşınır. Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin iştirakçıları bir çox ölkələrdir. Ancaq onların arasında yeganə ölkə Azərbaycandır ki, hər iki layihədə iştirak edir və hər iki layihənin reallaşmasına öz dəyərli töhfəsini vermişdir. Bu, bizə gələcəkdə həm siyasi, həm iqtisadi dividendlər gətirəcək, artıq gətirir. Dəmir yolu nəqliyyatı sahəsindəki əməkdaşlıq ölkələri bir-birinə daha da yaxın edir, təhlükəsizliyi möhkəmləndirir, bölgədə vəziyyəti daha da müsbət istiqamətdə inkişaf etdirir və hər bir ölkəyə böyük iqtisadi dividendlər gətirir.

Eyni zamanda, mənim göstərişimlə ölkədaxili dəmir yollarının tikintisi və modernləşdirilməsi istiqamətində addımlar atılır, o cümlədən Bakı şəhərətrafı yolun tikintisi gedir. Bu, Bakı qəsəbələrini şəhərin mərkəzi ilə bağlayan yollardır. Eyni zamanda, bizim turizm mərkəzlərindən biri olan Qəbələ şəhərinə dəmir yolunun çəkilişi layihəsi davam etdirilir. Sovet vaxtında Qəbələyə dəmir yolu çəkilməmişdir, buna ehtiyac yox idi, ancaq hazırda buna böyük ehtiyac var. Mən bu təşəbbüsü irəli sürəndə bəziləri fikirləşirdilər ki, buna ehtiyac yoxdur. Halbuki bu yaxınlarda Qəbələdə olarkən mənə məlumat verildi ki, bu ilin 9 ayında Qəbələyə 150 min turist gəlmişdir. Ancaq söhbət otellərdə yerləşən turistlərdən gedir. Əgər fərdi qaydada evlərdə kirayədə qalan turistləri nəzərə alsaq, bu, əlavə 150 min olacaq. Yəni, 9 ayda Qəbələyə 300 min turist gəlib. Qəbələyə bir yol var - Şamaxı-Qəbələ yolu. O yol da artıq mənim göstərişimlə yenidən qurulacaq. Əlbəttə ki, bu yol artan turizm trafikini götürə bilməyəcək. Ona görə Ləkidən Qəbələyə dəmir yolunun çəkilməsi xüsusi əhəmiyyət daşıyır.

Eyni zamanda, baxmayaraq ki, Şimal-Cənub nəqliyyat dəhlizi işləyir, ancaq Bakı-Yalama və Ələt-Astara dəmir yollarının vəziyyəti bizi qane edə bilməz. Çünki vaxtilə orada təmir işləri aparılmamışdır. Yollar tamamilə yenidən qurulmalıdır ki, qatarların sürəti artsın. Hazırda qatarlar saatda təqribən 40, maksimum 50 kilometr sürətlə gedir. Bu, böyük yükləri daşımağa və sərnişinlərə keyfiyyətli xidmət göstərməyə imkan vermir. Ona görə bizim məqsədimiz həm Şərq-Qərb, həm də Şimal-Cənub nəqliyyat dəhlizlərinin dəmir yolu hissəsinin modernləşdirilməsidir. Elə etməliyik ki, qatarlar saatda minimum 140 kilometr sürətlə hərəkət edə bilsin. Artıq Bakı-Yalama və Ələt-Astara dəmir yollarının modernləşdirilməsi prosesi başlanmışdır.

Ona görə mən sizi dəvət etmişəm ki, görülmüş işlərlə bağlı məlumat verəsiniz. Bu ilin sonuna qədər hansı işlər görüləcək və ən əsası, gələn il biz hansı işləri görməliyik? Çünki gələn ilin investisiya proqramında dəmir yollarının tikintisi nəzərə alınmalıdır. Məruzə edin.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov:

-Təşəkkür edirəm, möhtərəm cənab Prezident. Əlbəttə ki, bu işlərin əvəzi yoxdur. Ölkəmizdə 15 min kilometrdən çox yol çəkilib, körpülər, aeroportlar tikilib, o cümlədən Azərbaycanın dəmir yollarında bir növ inqilab olub, yenilik edilib. Bunların hamısı Sizin dəstəyiniz və xüsusi qayğınız hesabınadır.

İcazənizlə, əvvəlcə Bakı dairəvi dəmir yolu barədə məlumat verim. Əvvəllər "elektriçka" adı ilə mövcud olmuş bu yol uzun illərdir ki, işləmirdi. Son 25 ildə sadəcə 5-10 elektrik qatarı var idi ki, onlar da 40 ildən çox idi işləyirdi və istismar müddəti çoxdan bitmişdi.

*Ardı Səh. 3*

# "Azərbaycan çox etibarlı və önəmli tranzit ölkəyə çevrilib"

*Prezident İlham Əliyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədrini qəbul edib*

**Əvvəli-Səh-2**

Sizin göstərişinizlə biz bu yolun yenidən tikintisinə başlamışıq. Yan yolları ilə birlikdə bu yolun ümumi uzunluğu 200 kilometrə yaxındır. Uzun illər ərzində yol yatağı sıradan çıxmışdı. Sizin göstərişinizlə bütün yol kəsişmələrini eyni səviyyəlilərdən müxtəlif səviyyəlilərə keçirdik, insanların rahatlığı üçün. Bunu bir növ Abşeron dairəvi dəmir yolu adlandırmaq olar. Çünki bu dəmir yolu Xırdalan şəhəri də daxil olmaqla, bütün Abşeronu birləşdirir. Burada dəmir yolu üzrə işlərin 80 faizi, elektrik, rabitə və işarəvermə işlərinin isə 70 faizi yerinə yetirilib, 11 yeni, modern stansiya tikilib. Yol üzərində 18 piyada və 6 avtomobil keçidi inşa olunub. Bütün yolboyu çirkab və tullantı sularını yığışdırmışıq.

Birinci hissə, Abşeron dairəsini - yəni, Bakıdan çıxaraq Biləcəri, Xırdalan, Sumqayıt, oradan isə Novxanı, Fatmayi, Məhəmmədi, Zabrat-1, Zabrat-2, Zabrat-3, Sabunçu, Bakıxanov, "Koroğlu" və nəhayət, Bakını birləşdirən yol ilin axırınadək tamamlanır.

Prezident İlham Əliyev: İlin axırına tamamlanır, çox yaxşı.

Cavid Qurbanov: İndi Bakı-Sumqayıt dəmir yolu ilə hər gün 12 min sərnişin daşınır. Hesab edirik ki, dairə tamamlananda təqribən 25-30 min sərnişin daşımaq imkanımız olacaq.

Prezident İlham Əliyev: Bu, daha rahat nəqliyyat növüdür. Eyni zamanda, vətəndaşlar daha da qısa müddət ərzində mənzil başına, iş başına çata biləcəklər. Çünki indi avtomobil yollarında kifayət qədər tıxaclar var. Düzdür, bir çox yollar salınıb, yeni körpülər, yeni yol qovşaqları tikilib, amma yenə də pik saatlarda tıxaclar var. Ona görə bu yol həm insanlara rahatlıq verəcək, həm də avtomobil yolunun yükünü azaldacaq. Ona görə ilin sonuna qədər nəzərdə tutulan bütün layihələr başa çatmalıdır və gələn il də bu işlər davam etdiriləcək.

Bakı-Sumqayıt dəmir yolunun fəaliyyəti, onun əhəmiyyəti haqqında nə deyə bilərsiniz? Ümumiyyətlə, bu yol ilə nə qədər sərnişin daşınır?

Cavid Qurbanov: Artıq bu yol ilə hər gün 12 min sərnişin daşınır.

Prezident İlham Əliyev: 12 min?

Cavid Qurbanov: Bəli,12 min. Amma bu açılandan sonra həm bu tərəfdən Sumqayıta gedən, həm də əks tərəfdən gedən o yollar birləşəndə, avtobusların gediş-gəlişi də tənzimlənəndə gündə təqribən 25-30 min sərnişin daşınacaq. Bu da yəqin ki, ən azı 300-500 avtobusun işini azaldacaq. Həm ekoloji cəhətdən təmizdir, həm çox yüksək səviyyəli və sürətli qatarlardır, içərisində bütün rahatlığı var, həm də vaxt təqribən iki-üç dəfə azalıb.

Prezident İlham Əliyev: Bəli, mən getmişəm o yolu, çox rahatdır.

Cavid Qurbanov: Sürəti də 140-a artırmaq istəyirik.

Prezident İlham Əliyev: Müasir "Stadler" vaqonları da alınıb, onlar da işləyir.

Cavid Qurbanov: Bəli, hamısı işləyir.

Prezident İlham Əliyev: Bakı-Gəncə dəmir yolu necə işləyir indi? Gəncədə son dəfə olarkən gəncəlilərə söz vermişdim ki, bu yol işləyəcək, artıq bu, fəaliyyətdədir. Bizim planımız var ki, Gəncədən Gürcüstan sərhədinə qədər də həmin o vaqonlar işləsin və sərhəd rayonlarında yaşayan vətəndaşlar da bundan faydalansınlar.

Cavid Qurbanov: Hazırda hər gün bir qatar gedir, bir qatar gəlir.

Prezident İlham Əliyev: Neçə saata gedir?

Cavid Qurbanov: Dörd saata gedir, cənab Prezident. Amma bu, bizi qane etmir. Yolumuzun infrastrukturu imkan verir ki, bu süreti biz Siz söylədiyiniz kimi, 140-a qaldıraq. Bu da o deməkdir ki, biz 3 saata Gəncə şəhərinə çata bilərik.

Prezident İlham Əliyev: Üç saata?

Cavid Qurbanov: Bəli.

Prezident İlham Əliyev: Çox gözəl.

Cavid Qurbanov: Sizin tapşırığınızdan sonra biz yenidən bu məsələ ilə məşğul olmuşuq. Bu gün Gəncə şəhərindən Ağstafa şəhərinə qədər olan yolda işləri tam bitirmişik. Orada 112-yə yaxın yolötürücüsü var idi, onların da 67-sini artıq tamamlamışıq. Fikrimiz odur ki, Ağstafaya gediş-gəliş təqribən dörd saat yarıma olsun. Gəncəyə ən geci üç saat yarıma çatsın. Beləliklə, sərnişinlərin məmnunluğu, rahatlığı Sizin göstərişinizlə tam təmin olunacaq.

Prezident İlham Əliyev: Vətəndaşlar indi dəmir yolu ilə getməyi seçəcəklər, çünki həm rahatdır, təhlükəsizdir, həm də məsafə və vaxt baxımından daha da əlverişlidir. Bəs, Ləki-Qəbələ yolunun tikintisi nə yerdədir?

Cavid Qurbanov: Ləki-Qəbələ yolunun tikintisi davam edir. Bu yolun uzunluğu 46 kilometrdir.

Prezident İlham Əliyev: Amma hələlik torpaq işləri aparılır?

Cavid Qurbanov: Bəli, torpaq işləri aparırıq, yolun 11 kilometrini artıq qoymuşuq. Süni qurğular 100 ədəddir. Bunun 100-nü də artıq yerləşdirmişik, körpülər, istinad dayaqları və sair. İş davam edir.

Prezident İlham Əliyev: Nə vaxt hazır olacaq?

Cavid Qurbanov: Bizim hesablamalarımıza görə, gələn ilin ortalarına, təqribən avqust-sentyabr aylarına artıq istifadəyə hazır olacaq.

Prezident İlham Əliyev: Çalışın, yay mövsümünə qədər istifadəyə verilsin. Çünki yay aylarında o bölgələrə daha çox vətəndaş gedir. Ona görə, çalışın, yay mövsümünə qədər başa çatdırasınız.

Cavid Qurbanov: Baş üstə, cənab Prezident. Bizim dəmir yollarımızın 60 faizi Sovetlər Birliyi dövründə elektrikləşdirilmiş yollardır. Bu, həm Zaqatala-Qəbələ tərəfdədir, həm Astara zonasındadır. Sizin tapşırığınızdan sonra biz bu yollar üçün də 2-3 dizel qatarı sifariş etmişik. İki yeni qatarımız da gəlir. Qəbələyə işləyəcək bu qatarları sınaqdan keçirmək üçün Gəncə dəmir yoluna buraxacağıq.

Prezident İlham Əliyev: Yaxşı. Bəs, Ələt-Astara dəmir yolunda hansı işlər görülür?

Cavid Qurbanov: Ələt-Astara yolu ilə bağlı Siz o vaxt göstəriş vermişdiniz ki, Lənkəran şəhərinin gözəlliyini, dənizə yaxınlığını, dənizi qorumaq üçün, ekologiyası üçün həmin yol kənardan aparılsın. Bu gün biz o yolla məşğuluq. Bütün layihələndirmə işləri görülüb. Siz dediyiniz kimi, Astara-Astara yolunun 17 kilometrlik hissəsi artıq tikilib. Həm körpü inşa olunub, həm də o tərəfdə bizim böyük terminal tikilib. Terminal bu gün işləyir. İlin axırınadək orada daha 7-8 yol tikəcəyik. Avtomobil yolları da tikiləndən sonra orada bir dənə avtomobil terminalı tikmək lazım gələcək. Yəqin ki, bizim oradakı ərazimizdə tikiləcək. Dəmir yolu ilə daşımalarda artım var, bu gün maraq çoxdur.

Prezident İlham Əliyev: Bəli, biz bu yolu mütləq yenidən qurmalıyıq. Birincisi, mövcud yol artan yükdaşımanı öz üzərinə götürə bilməz. Bu, faktdır və sürət də çox aşağıdır. Yol düz dəniz qırağı ilə gedir, həm təhlükəlidir, həm də ki, vaxt baxımından səmərəli deyil. Digər tərəfdən, Lənkəran indi böyük turizm potensialına malik olan bir rayondur. Son illərdə orada otellər, istirahət zonaları tikilib. Biz Bakı-Lənkəran avtomobil yolunu yenidən qurmuşuq. Demək olar ki, heç bir şəhərə girməyən və məsafə baxımından təqribən 60-70 kilometr daha qısa yoldur. Ona görə vətəndaşlar tam rahatlıqla gedirlər. Odur ki, o dəmir yolunu sahildən başqa istiqamətə keçirmək, əlbəttə ki, böyük əhəmiyyət daşıyır. Beləliklə, Lənkəranın sahil zonası da turizm üçün açıq olacaq, iş adamları, investorlar gələcək, orada otellər tikəcək. Çünki orada çox gözəl sahil zonası vardır və biz bundan istifadə etməliyik.

Bir də ki, mənim tapşırığımla indi Bakı-Yalama yolunda işlər gedir. Biz bu yolun da inşasını sürətləndirməliyik, ilk növbədə, Şimal-Cənub nəqliyyat dəhlizi üçün. Həmçinin bizim digər kurort zonası olan Qusar rayonuna da dəmir yolu çəkilməlidir. Hansı ki, sovet vaxtında da heç çəkilməmişdi. İndi mən göstəriş vermişəm ki, bu işlər də öz həllini tapsın. Bu istiqamətdə hansı işləri görmüsünüz?

Cavid Qurbanov: Cənab Prezident, Biləcəri-Yalama istiqamətində yolun uzunluğu 348 kilometrdir. Artıq büdcə müəyyənləşib, Dünya Bankı, Fransa İnkişaf Agentliyi tərəfindən. Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi ilə birgə işləmişik. Artıq kredit yekunlaşıb. Biz o yolun tikintisinə yəqin ki, dekabr ayında, yaxud da yanvar ayında başlayacağıq. Bu, yolun bir hissəsi üçündür. Qalan hissəsi Sizin tapşırığınızla büdcədən ayrılıb. Artıq orada 5 yeni yarımstansiya tikilib, çox böyükdür. Elektrik, rabitə xətləri ilə bağlı işləri görmüşük, fiberoptik kabelləri də çəkirik. Tikinti işlərinə gələn il başlasaq, təqribən iki il davam edəcək.

Prezident İlham Əliyev: Bəli, o yola da çox böyük diqqət göstərilməlidir. Beləliklə, biz Şimal-Cənub nəqliyyat dəhlizinin səmərəsini böyük dərəcədə artıracağıq.

# "Azərbaycan artıq çox fəal dialoq məkanına çevrilib"

*Prezident İlham Əliyev Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavinini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavini Malkolm Honlaynı qəbul edib. AZƏRTAC xəbər verir ki, qonağı salamlayan Prezident İlham Əliyev dedi:

-Xoş gəlmisiniz.

Malkolm Honlayn:

-Sizi görməyə şadam.

Prezident İlham Əliyev: Gəldiyinizə görə təşəkkür edirəm. Mən sizin Sammitdə iştirakınızı yüksək qiymətləndirirəm.

Malkolm Honlayn: Bu qədər fikir ayrılığı, bu qədər gərginliyin şahidi olduğumuz bir zamanda Sizin vaxt ayıraraq insanları bir araya gətirmək üçün təşəbbüs göstərməyiniz bir faktdır. Düşünürəm ki, bizim üzərimizə düşən məsuliyyət də burada olub Sizə dəstək nümayiş etdirmək və bunu qiymətləndirməkdir.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Eyni zamanda, biz çox uğurlu Mədəniyyətlərarası Dialoq üzrə Forum və ənənəvi Bakı Humanitar Forumunu keçiririk. Beləliklə, biz dinlər, mədəniyyətlər, ölkələr arasında körpülərin qurulması istiqamətində fəaliyyətimizi davam etdiririk və Azərbaycan artıq çox fəal dialoq məkanına çevrilib. Düşünürəm ki, belə mühüm tədbirə ev sahibliyi etmək üçün doğru zamandır. Ümidvaram ki, o, uğurlu olacaq, yaxşı nəticələr əldə ediləcək.

Malkolm Honlayn: Onun keçirilməsi faktının özü bir uğurdur. Bu da bir faktdır ki, Siz və Azərbaycan qlobal, beynəlxalq səviyyədə elə bir nüfuz qazanmısınız ki, bura insanların bir araya gəldiyi bir məkandır.

# Azərbaycan- Rusiya əlaqələri tarixi köklərə bağlıdır

## *Prezident İlham Əliyev Rusiya Federasiya Şurasının sədr müavinini və komitə sədrini, Dağıstan Xalq Məclisinin sədrini və sədrin müşavirini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Rusiya Federasiyasının Federasiya Şurasının sədr müavini İlyas Umaxanovu, Rusiya Federasiyasının Federasiya Şurasının Regional məsələlər üzrə komitəsinin sədri Sergey Melikovu, Dağıstan Xalq Məclisinin sədri Xızrı Şıxsaidovu və Dağıstan Xalq Məclisi sədrinin müşaviri Məhəmməd Qurbanovu qəbul edib.***



AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev bildirib ki, Azərbaycan artıq çoxdandır ki, xalqları, müxtəlif dinlərin nümayəndələrini yaxınlaşdıran humanitar xarakterli tədbirlərin keçirildiyi məkana çevrilib:

-Sizi yenidən görməyimə şadam. Xoş gəlmisiniz.

Çox şadam ki, siz mühüm tədbirdə - dünya dini liderlərinin Sammitində iştirak edəcəksiniz. Bu, ölkəmiz üçün çox mühüm hadisədir. Zənnimcə, bütün iştirakçılar üçün də belədir. Mən çox şadam ki, Rusiya Federasiyası çox yüksək səviyyədə, Federasiya Şurasının rəhbərliyi, qardaş Dağıstanın rəhbərliyi səviyyəsində təmsil olunub və Zati-müqəddəsləri, Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillin də, müxtəlif ölkələrdən olan çoxsaylı qonaqların da iştirakı gözlənilir. Zənnimcə, bu tədbir mədəniyyətlərarası, sivilizasiyalararası dialoqun gələcək inkişafına yaxşı təkan verəcək.

Bildiyiniz kimi, Azərbaycanda bu qəbildən olan çoxlu tədbirlər keçirilir. Rusiya və Azərbaycan prezidentlərinin himayəsi ilə müntəzəm olaraq keçirilən Bakı Humanitar Forumu, ənənəvi Mədəniyyətlərarası Dialoq Forumu beynəlxalq təşkilatlar, o cümlədən BMT, UNESKO və digər təşkilatlar tərəfindən dəstəklənir. Beləliklə, Azərbaycan artıq çoxdandır ki, xalqları, müxtəlif dinlərin nümayəndələrini yaxınlaşdıran humanitar xarakterli tədbirlərin keçirildiyi məkana çevrilib.

Əlbəttə, bunlar həm də ikitərəfli gündəliyə aid məsələlər barədə söhbət etmək üçün yaxşı imkandır. Bu gündəlik olduqca zəngindir və yüksək səviyyədə əlaqələr bizim münasibətlərimizin inkişafına çox güclü təkan verir. Mənim Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinlə bir neçə dəfə görüşüm olub. Pekində "Bir kəmər, bir yol" konfransı zamanı görüşümüzü xüsusi xatırlayıram. Tədbirlər qrafikinin çox gərgin olmasına baxmayaraq, biz bir sıra məsələlər barədə çox ətraflı söhbət etməyə vaxt tapdıq. Rusiya Prezidentinin məni "Valday" Forumunda iştiraka dəvət etməsi də bizə hörmət və xoş münasibət əlaməti kimi qəbul edildi. Forum çərçivəsində də Rusiya Prezidenti ilə mənim görüşüm oldu. Biz həmin görüşdə də ikitərəfli gündəliyə aid diskussiyaları davam etdirdik.

Əlbəttə, Valentina İvanovna Matviyenkonun rəhbərlik etdiyi nümayəndə heyətinizin bu ilin yazında ölkəmizə səfəri də parlamentlərarası istiqamətdə münasibətlərə və bütövlükdə, ikitərəfli gündəliyə aid məsələlərə yaxşı təkan verdi. Buna görə də düşünürəm ki, bu görüş mühüm məsələlərə bir daha nəzər salmaq və əlbəttə, Xızrı İsayeviçin, Məhəmmədin və sizin, - biz ilk dəfə görüşürük, - timsalınızda qardaş Dağıstan nümayəndələrini görməyə çox şadam. Əlbəttə, bizim əziz qardaşımız İlyasa da "Xoş gəlmisiniz" deyirəm, o da bizim qardaş diyarı təmsil edir. Bir daha xoş gəlmisiniz.

X X X

Rusiya Federasiyasının Federasiya Şurasının sədr müavini İlyas Umaxanov:

-Hörmətli İlham Heydər oğlu, vəziyyətlə əlaqədar əsasən Dağıstan təmsilçilərindən ibarət olan Rusiya nümayəndə heyəti ilə görüşmək üçün vaxt tapdığınıza görə Sizə təşəkkür etmək istəyirik. Lakin bununla bərabər, demək istəyirəm ki, əlbəttə, dünya dini liderlərinin Sammitində iştirak etmək bizim üçün, əlbəttə, çox vacib idi. Bu, artıq ikinci Sammitdir. Mənə birinci Sammitdə iştirak etmək xoşbəxtliyi nəsib olub. Bu Sammitin gedişini böyük hörmət və maraqla izləyəcəyik. Ona görə ki, Parlamentlərarası İttifaqın Sankt-Peterburqda keçirilmiş 137-ci Assambleyasında parlament rəhbərlərinin ümumdünya konfransının keçirilməsi təşəbbüsü irəli sürüldü. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası həmin konfransın 2022-ci il mayın 21-də Rusiyada keçirilməsi barədə müvafiq qətnamə qəbul etdi. Etnik və konfessiyalararası məsələlərə həsr ediləcək bu konfransa Rusiya Federasiyasının Prezidentinin razılığı alındı. Ona görə də ikinci Sammitdə iştirak etmək, onun gedişini müşahidə etmək bizim üçün, əlbəttə, son dərəcə vacibdir.

Eyni zamanda, demək istəyirəm ki, biz Birinci vitse-prezident, çox hörmətli Mehriban Əliyevanın Moskvaya səfərini səbirsizliklə gözləyirik. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində Azərbaycan pavilyonunun açılışı olacaq, həmçinin Regionlararası Forum keçiriləcək.

# İlham Əliyev: “Bizim ikitərəfli münasibətlərimiz uğurla inkişaf edir”

## *Prezident İlham Əliyev Misirin Nümayəndələr Palatası sədrinin birinci müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Misir Ərəb Respublikasının Nümayəndələr Palatası sədrinin birinci müavini Əl-Seyyid Mahmud əl-Şərifin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev qeyd edib ki, bizim ikitərəfli münasibətlərimiz uğurla inkişaf edir və bir çox sahələri əhatə edir:***

- Xoş gəlmisiniz Azərbaycana, sizi səmimiyyətlə salamlayıram. Zirvə görüşündə iştirak etməyiniz bizi çox məmnun edir, şadam ki, ölkəniz bu tədbirdə yüksək səviyyədə təmsil olunur. Əlbəttə, səfəriniz yaxşı imkan yaradır ki, biz ikitərəfli münasibətlər haqqında danışaq. Bizim ikitərəfli münasibətlərimiz də uğurla inkişaf edir və bir çox sahələri əhatə edir. Sizin ölkəniz bu yaxınlarda Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Zirvə Görüşündə yüksək səviyyədə təmsil olunmuşdur və Yekun Bəyannamənin qəbul edilməsində də ölkənizin mövqeyini biz yüksək qiymətləndiririk. Bildiyiniz kimi, növbəti üç il ərzində Azərbaycan bu Hərəkata sədrlik edəcək və bu vəzifəyə çox böyük məsuliyyətlə yanaşırıq. İqtisadi sahədə əlaqələrimizə gəldikdə, deyə bilərəm ki, bu sahədə çox böyük potensial var. Yaxşı siyasi əlaqələrimizi nəzərə alaraq, hesab edirəm, iqtisadi sahədə biznes qurumlarına biz çox ciddi siqnal verməliyik ki, onlar öz fəaliyyətini bir az da genişləndirsinlər. Şadam ki, turizm sahəsində də yaxşı irəliləyiş var, həm Azərbaycan turistləri ölkənizi ziyarət edirlər, həm də ki, Misirdən gələn qonaqların sayı artmaqdadır. Təbii ki, parlamentlərarası əlaqələrə də böyük əhəmiyyət verilir. Əminəm ki, səfər zamanı bu əlaqələrə yeni təkan veriləcək.

Misir Ərəb Respublikasının Nümayəndələr Palatası sədrinin birinci müavini Əl-Seyyid Mahmud əl-Şərif:

-Bismillahir rəhmanir rəhim. Möhtərəm cənab Prezident, icazə verin, əvvəlcə vaxt tapıb bizi qəbul etdiyinizə görə Sizə şəxsən öz adımdan və həmkarlarım adından təşəkkürümüzü bildirim. Bütün Azərbaycan xalqına qonaqpərvərliyə və istiqanlılığa görə dərin təşəkkürümüzü bildiririk. İcazə verin, Misir Ərəb Respublikasının Prezidenti cənab Əbdülfəttah əs-Sisinin şəxsən öz adından və Misir xalqı adından Sizə və Azərbaycan xalqına ehtiramını və dərin təşəkkürünü çatdırım. Şəxsən öz adımdan bildirmək istəyirəm, mən çox xoşbəxt insanam ki, 1994-cü ildə ümummilli lider Heydər Əliyevlə Misirdə görüşmüşəm. Bu gün də çox xoşbəxtəm ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə görüşürəm. Əlbəttə ki, son illər Azərbaycanın bütün sahələrdə, istər iqtisadi, istər infrastruktur, istərsə də bütün sahələrin inkişafı baxımından əldə etdiyi nailiyyətlər digər dünya dövlətlərinə bir nümunədir.

Prezident İlham Əliyev onun da salamlarını Misir Prezidenti Əbdülfəttah əs-Sisiyə çatdırmağı xahiş etdi.

Misirin Nümayəndələr Palatası sədrinin birinci müavini Əl-Seyyid Mahmud əl-Şərif bildirdi ki, ölkəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Söhbət zamanı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Sonda xatirə şəkli çəkdirildi.

# “İran-Azərbaycan əlaqələri yüksək səviyyədədir, uğurla inkişaf edir”

## *Prezident İlham Əliyev İranın Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Türkmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev bildirib ki, İran-Azərbaycan əlaqələri yüksək səviyyədədir, uğurla inkişaf edir:

- Xoş gəlmisiniz. Çox şadam ki, qardaş ölkə sabah keçiriləcək dünya dini liderlərinin Zirvə Görüşündə yüksək səviyyədə iştirak edəcək. Həm bu Zirvə Görüşündə iştirak çox önəmlidir, eyni zamanda, yaxşı fürsətdir ki, ikitərəfli məsələləri də müzakirə edək.

Bildiyiniz kimi, bu yaxınlarda İran İslam Respublikasının Prezidenti cənab Ruhani Azərbaycanda səfərdə idi, Qoşulmama Hərəkatının Zirvə Görüşündə iştirak edirdi. Səfər çərçivəsində bizim görüşümüz olmuşdur. Çox yaxşı görüş oldu. Görüş zamanı gündəlikdə duran bir çox ikitərəfli məsələləri müzakirə etdik. Bir daha gördük ki, İran-Azərbaycan əlaqələri yüksək səviyyədədir, uğurla inkişaf edir. İmzalanmış bütün sənədlər, əldə olunmuş razılaşmalar icra edilir. Bu, onu göstərir ki, əlaqələr çox səmərəlidir və yaxşı nəticə verir. Əminəm ki, gələcəkdə bu əlaqələrin inkişafı üçün hər iki tərəf öz səylərini göstərəcək və əldə edilmiş bütün razılaşmalar həyatda öz yerini tutacaqdır.

x x x

İranın Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi:

-Çox sağ olun, təşəkkür edirəm. Bizə vaxt ayırdığınıza və bizi qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. İki il bundan əvvəl mənə belə bir fürsət yarandı, xanım Mehriban Əliyeva ilə görüşdüm və indiyədək həmin görüşü xatırlayıram, xoş təəssüratları yadımdadır.

Əvvəlcə, istərdim ki, öz dövlətimin, İran İslam Respublikası dövlətinin və xalqının səmimi salamlarını Sizə çatdırım. Bizimlə Azərbaycan arasında müştərəkliklər, bağlılıqlar çoxdur. Mən uşaqlıqdan Azərbaycan dilini nənəmdən öyrənmişəm. İllər keçdikcə bu dili mənə öyrətdiyinə görə və öz sinəsindən mənim sinəmə bu dili nəql etdiyinə görə həmişə ona dua edirəm. Bizimlə sizin aranızda bir çox bağlılıqlar, müştərəkliklər var, o cümlədən mədəni sahədə. Buna görə də biz mədəni sahədə bir çox birgə layihələr həyata keçirmişik və əməkdaşlıqlar etmişik. Mədəniyyət Nazirliyi ilə bir çox proqramlar, layihələr icra etmişik, gələcəkdə də bunu davam etdirəcəyik. Söhbət zamanı ölkələrimiz arasında enerji, ticarət və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, ikitərəfli əlaqələrimizin möhkəmləndirilməsində dövlət başçıları arasında mütəmadi olaraq keçirilən görüşlərin əhəmiyyəti qeyd edildi.

# İlham Əliyev: “Ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir”

***Azərbaycan sabitlik, təhlükəsizlik məkanıdır. Yaxın tarix əyani şəkildə göstərdi ki, sabitlik pozulanda ölkələr idarəolunmaz vəziyyətə düşür, iqtisadiyyat çökür, sənaye iflic olur, insanlar əziyyət çəkir və sonra bu vəziyyətdən çıxmaq üçün onilliklər lazım olur. Azərbaycanın uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir. Çünki bu siyasət xalqımızın rifah halının yaxşılaşmasına hesablanıb. Bu siyasət ölkəmizin güclü dövlətə çevrilməsinə hesablanıb. Məhz bu siyasət nəticəsində bu gün Azərbaycan dünyanın müxtəlif kürsülərindən öz sözünü açıq deyir, öz müstəqil siyasətini aparır, öz maraqlarını tam şəkildə qoruyur.***




AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin yenicə çapdan çıxmış 92-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunmuş konfransdakı nitqində söyləyib.

Akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2019-cu ilin yanvar-fevral aylarını əhatə edir.

Kitabda Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfəri haqqında informasiyalar, Davosda “Rossiya-1”, Çinin CGTN televiziya kanallarına müsahibələrinin mətnləri, “Bir kəmər - bir yol” təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı” adlı sessiyada sualları cavablandırmasına, İsveçrə Konfederasiyasının Prezidenti, beynəlxalq ictimaiyyətin nümayəndələri ilə görüşlərinə dair materiallar toplanıb. Dövlətimizin başçısı CGTN telekanalına müsahibəsində deyib: “Əlbəttə ki, dünya dəyişir, regionumuz dəyişir, bir çox hadisələr baş verir. Siz onları 5 il əvvəl heç təsəvvür edə bilməzdiniz. Hesab edirəm ki, hər bir lider hadisələri izləməlidir və baş verənlərə hər zaman diqqətli olmalıdır. Biz 1-2 ildən sonra dünyada nələr baş verəcəyini bilmirik. Lakin bugünkü geosiyasi mühitə gəldikdə, fikrimcə, biz həmin mühitdə öz yerimizdə qərarlaşmışıq və bu mövqe bizi qane edir. Beynəlxalq siyasət nöqteyi-nəzərindən əsas məqsədimiz elə bir xarici siyasətdən ibarətdir ki, onun ölkənin daxili vəziyyətinə müsbət təsiri olsun, bütün növ riskləri azaltsın. Zənnimcə, biz buna nail olmuşuq, çünki Azərbaycanda insanlar dinc şəraitdə yaşayır və ölkə sabitdir”.

Nəşrdə, həmçinin Azərbaycan Prezidentinin Fransa, İran, Almaniya və Rusiyanın, Ümumdünya Gömrük Təşkilatının, Beynəlxalq Astronomiya Federasiyasının yüksəkvəzifəli nümayəndələrini qəbul etməsinə dair informasiyalar verilib. Dövlətimizin başçısı bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Oxucu bu kitabda Azərbaycan Prezidentinin “Real” televiziyasına müsahibəsinin, şəhid ailələri ilə görüşü zamanı çıxışının, onlarla söhbətlərinin, Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında nitqinin mətnləri, Beyləqan rayonuna səfərinin materialları və məktublarla tanış ola bilər.

Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri verilib. “Azərnəşr” tərəfindən buraxılan 92-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## 2020-ci ilin dövlət büdcəsi haqqında qanun layihəsi birinci oxunuşda qəbul edilib



Milli Məclisin dünən keçirilən plenar iclasında 2020-ci ilin dövlət büdcəsi haqqında qanun layihəsi birinci oxunuşda qəbul edilib. Belə ki, 2020-ci ilin dövlət büdcəsinin gəlirləri 24 milyard 134 milyon manat, xərcləri 26 milyard 913 milyon manat, icmal büdcənin gəlirləri isə 27 milyard 533 milyon manat təşkil edəcək. İcmal büdcə xərclərinin yuxarı həddi 29 milyard 488 milyon manat olacaq ki, bu da 2019-cu illə müqayisədə 2 milyard 117 milyon manat və ya 7,7 faiz çoxdur. İcmal büdcənin kəsiri 1 milyard 955 milyon manat və ya proqnozla nəzərdə tutulan Ümumi Daxili Məhsulun 2,3 faizinə bərabər olacaq.

Dövlət büdcəsinin gəlirlərinin tərkibində neft gəlirləri 56,1 faiz və ya 13,5 milyard manat, qeyri-neft gəlirləri 43,9 faiz və ya 10,6 milyard manat nəzərdə tutulur. Vergi orqanlarının xətti ilə dövlət büdcəsinə 7 milyard 875 milyon manat daxilolma nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 559 milyon manat və ya 7,6 faiz çoxdur. Gömrük orqanlarının xətti ilə büdcəyə 4 milyard manat, yəni 2019-cu ilə nisbətən 298 milyon manat və ya 8 faiz çox vəsaitin daxil olması proqnozlaşdırılır. Növbəti ildə Dövlət Neft Fondundan dövlət büdcəsinə 11 milyard 350 milyon manat və ya cari illə müqayisədə 14 milyon manat az transfert nəzərdə tutulur.

## Azərbaycanla Birləşmiş Ərəb Əmirliklərinin iqtisadi əməkdaşlığı daha da inkişaf edəcək

Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasındakı mövcud iqtisadi əməkdaşlıq əlaqələri daha da inkişaf edəcək. AZƏRTAC xəbər verir ki, bu barədə noyabrın 13-də İqtisadiyyat naziri Mikayıl Cabbarov jurnalistlərə müsahibəsində deyib.

Nazir qeyd edib ki, bu gün Bakıda Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın VII iclası keçirilib. İclasın nəticəsi olaraq, tərəflər arasında razılaşdırılmış müvafiq protokol imzalanıb. Protokolda iqtisadiyyatın müxtəlif sahələrini, o cümlədən ticarət, nəqliyyat, logistika, turizm, enerji və digər sahələrdə əməkdaşlıq barədə müddəalar əksini tapıb.

## Qax məktəbliləri: Tur-aksiya sayəsində ölkəmizin regionları barədə biliklərimiz daha da dərinləşəcək





“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyada iştirak edən Qax məktəbliləri respublikamızın cənub bölgəsinə yola düşməzdən əvvəl sevinc hisslərini AZƏRTAC-ın bölgə müxbiri ilə bölüşüblər. Qax şəhər 2 nömrəli məktəb-liseyin 10-cu sinif şagirdi Fuad Kərimli fikirlərini belə ifadə edib: “Belə bir möhtəşəm layihədə iştirak etdiyim üçün qürur hissi keçirirəm. Ölkəmizin cənub bölgəsinə səfər etmək, Lənkəran, Masallı, Astara rayonlarında olmaq çoxdankı arzum idi. Şübhəsiz ki, bu ekskursiya biz məktəblilərin Azərbaycanın tarixi, ölkəmizin ayrı-ayrı regionları ilə bağlı biliklərimizin dərinləşməsinə müsbət təsir göstərəcək”.

Zəyəm kənd tam orta məktəbin 11-ci sinif şagirdi Səma Əmranlı da layihənin iştirakçısı olduğu üçün sevinc hissi keçirdiyini deyib: “İlk dəfədir respublikamızın cənub bölgəsinə səfər edirəm. Gedəcəyimiz rayonların tarixi məkanlarını, görməli yerlərini, çay plantasiyaları və sitrus meyvə bağlarını indiyədək televiziya ekranlarından izləyirdim. İndi isə bütün bunları öz gözlərimlə görəcəyəm. Bizə bu sevinci yaşatdığına görə Prezidentimizə minnətdarlığımı bildirirəm”.

# Regional təhlükəsizlik: Ermənistanın pozucu fəaliyyəti və Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlığının imkanları




***Cənubi Qafqazda təhlükəsizlik sisteminin formalaşmasının müqəddəm şərtləri, gedişi və perspektivləri nüfuzlu politoloq və iqtisadçıların, jurnalist və analitiklərin apardıqları diskussiyaların əsas mövzusuna çevrilib. Müşahidələr göstərir ki, bu məsələdə qeyri-müəyyən məqamlar kifayət qədərdir. Onlar daha çox rəsmi İrəvanın pozucu fəaliyyətindən qaynaqlanır. Uğursuz xarici siyasət yürüdən Ermənistan hakimiyyəti regionda qeyri-müəyyənliyi artırır, müxtəlif təbiətli risklərin meydana gəlməsinə səbəb olur. Eyni zamanda, İrəvan bunu Rusiyanın Cənubi Qafqazda əməkdaşlıq və təhlükəsizlik istiqamətində ciddi müsbət addımlar atdığı bir mərhələdə edir. Bu isə regionda geosiyasi mənzərənin öz bütövlüyünü itirməkdə olduğu anlamını verir. Bütün bunların fonunda Cənubi Qafqazda təhlükəsizlik sisteminin Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlığı fonunda formalaşma perspektivlərinin geosiyasi analizinə ehtiyac görürük.***

## Risk mənbəyi: Ermənistan mövqeyini dəyişmir

Maraqlıdır, Ermənistanda hələ də bu vassal ölkəni müstəqil dövlət sayanlar var. Onlar hətta bu ölkənin qlobal proseslərdəki "yeri və rolu"ndan belə bəhs etməyə çalışırlar. Bunun üçün erməni ekspertlərin bir tutarlı arqumenti belə yoxdur. Əvəzində, antiazərbaycan ruhunda quraşdırılmış və cəfəng uydurmalardan danışırlar. Buna baxmayaraq, Cənubi Qafqazda təhlükəsizlik sisteminin formalaşdırılması kontekstində Ermənistan faktorunu nəzərə almaq lazımdır. Bunun iki aspektdə mənası vardır.

Əvvəla, Ermənistan Rusiyanın forpostu olaraq nə dərəcədə regional miqyasda təxribat törədə bilər? İkincisi, Ermənistan terroru dəstəkləyən dövlət kimi regional təhlükəsizlik sisteminə hansı dərəcədə təhdid yaradır? Bu iki sualın prizmasından Ermənistan rəhbərliyinin yeritdiyi səbatsız və qeyri-konstruktiv xarici siyasətə nəzər salsaq, rəsmi İrəvanın regionun təhlükəsizliyi üçün qara ləkə olduğunu görürük.

Birinci aspektdən başlayaq. Ermənistan daim Rusiyadan şikayət edir. Rusiyanın yaratdığı bütün inteqrativ təşkilatlarda təmsil olunan Ermənistandır: MDB, Aİİ, KTMT. Bundan başqa, bu ölkənin iqtisadi sistemi, enerji sektoru çox böyük ölçüdə Moskvanın nəzarəti altındadır. Bu yaxınlarda Nikol Paşinyan demişdi ki, KTMT Ermənistan üçün strateji əhəmiyyət kəsb edir. Yəni rəsmi İrəvan sözdə bütün təhlükəsizlik strategiyasını Rusiya ilə bağlayır.

Ancaq məsələ ondan ibarətdir ki, erməni ekspertlər və KİV orqanları gecə-gündüz qırıldadırlar ki, Rusiya Azərbaycana dəstək olur, onu müdafiə edir, qoruyur, əks halda, "şanlı" erməni ordusu Bakıda olardı. Hətta, sən demə, Azərbaycan 2016-cı ilin aprelində birbaşa Rusiyanın dəstəyi ilə erməni ordusuna hücum edibmiş. Təsəvvür edin: Rusiya öz forpostuna Azərbaycanla birgə hücum edib, ancaq "qəhrəman" erməni işğalçı ordusu güclü müqavimət göstərib! Həqiqət isə ondan ibarətdir ki, erməni rəhbərliyi dərhal Moskvaya qaçdı və yalvardı ki, Azərbaycan Ordusunun hücumunu dayandırsınlar. Kreml də lazımi yardımı ermənilərə göstərdi.

Bundan başqa, Ermənistan rəhbərliyi özü dəfələrlə Rusiyanın yaratdığı təşkilatlarda təmsil olunduğunu bəyan edir, lakin yenə də Moskvanın Azərbaycana yardım etməsindən dəm vurur. Özü də Ermənistan əleyhinə fəaliyyətdə Moskva-Bakı birliyindən danışır. Burası çox paradoksal olduğu qədər də primitivdir. Çünki regiondakı vəziyyəti az-çox anlayanlar gözəl bilirlər ki, Ermənistanın bütün sosial, siyasi, hərbi, strateji mövcudluğu Rusiya ilə bağlıdır. Moskva bir gün belə əlini çəksə, ermənilər qorxularından ölərlər.

Onda bəs, rəsmi İrəvanın bu hay-küyü nə üçündür? Aydındır: reallığı ört-basdır etmək, Ermənistanın müstəqil dövlət olduğuna sadəlövhləri inandırmaq və həm də Qərbin gözünə kül üfürmək. Bir sözlə, çox saxta, süni bir oyun aparmağa çalışır. Məhz bu məqam regional təhlükəsizlik sisteminin formalaşması qarşısında ən ciddi əngəllərdən biridir. Onun səbəbləri sırasında yuxarıda vurğuladığımız ikinci faktor vardır.

Bəli, Ermənistan uzun illərdir ki, dövlət səviyyəsində terrora dəstək verir, onun qaynaqlarından biridir. Təcrübə göstərir ki, Ermənistan "müstəqilliyi" dövründə ondan-bundan yardım diləməkdən və terror aktlarını təşkil etməkdən başqa bir iş görə bilmir. Məsələn, Ermənistan regional miqyasda hansı mədəni, elmi, siyasi və ya iqtisadi proqramın təşəbbüskarıdır? Ermənistan ekspert dairələrinin "analizləri"nə baxsan, orada birini qınama, o birisindən küsmə, digərini isə tərifləmədən başqa bir şeyə rast gəlməzsən. Tam arqumentsizlik və tam iftira. Bunun fonunda Rusiya ilə Türkiyə və Azərbaycanın arasını vurmaq, Azərbaycanla Gürcüstan arasında problem yaratmaq, Azərbaycan-İran münasibətlərini ləkələmək kimi mənfur işlərlə məşğuldurlar.

## Regionun geosiyasi konfiqurasiyası: perspektivli model

Belə bir ideoloji, mənəvi və təbliğati mənzərəsi olan bir ölkədə terror hər zaman özünə yuva sala bilər. Ermənistan regionun terror qaynağı olaraq qalmaqda davam edir. Onun dəyişmək fikri yoxdur. Bunun fonunda Cənubi Qafqazda təhlükəsizlik sistemi necə formalaşa bilər?

Yaxşı ki, regionda bu prosesi apara biləcək dövlətlər var. Bunlar Azərbaycan, Gürcüstan, Türkiyə, Rusiya və qismən İrandır. Hazırda Cənubi Qafqazın təhlükəsizliyinə ən çox töhfə verən ölkələr Azərbaycan, Türkiyə və Gürcüstandır. Moskva indi bu prosesdə müsbət rol oynayır və əhəmiyyətli dərəcədə sabitliyin qorunub saxlanmasına töhfə verir. Azərbaycan, Türkiyə və Gürcüstan isə konkret model üzrə hərəkət edirlər. Bu prosesin bir sıra vacib məqamlarını vurğulamaq olar.

Hər şeydən öncə, bu üç dövlət Cənubi Qafqazda regional əməkdaşlığın inkişafında maraqlı olub beynəlxalq hüququn imkan verdiyi çərçivədə müxtəlif layihələrin reallaşdırılmasında aktiv əməkdaşlıq edir. Uzun illərin təcrübəsi göstərir ki, Azərbaycan, Türkiyə və Gürcüstan Cənubi Qafqazda beynəlxalq layihələrin həyata keçirilməsində dayanıqlı surətdə fəaliyyət göstərə bilirlər. Bu stabillik onu deməyə əsas verir ki, həmin ölkələrin regional əməkdaşlıqla bağlı təsəvvürləri üst-üstə düşür. Şübhəsiz ki, belə bir geoiqtisadi maraq ortaqlığı geosiyasi və təhlükəsizlik müstəvilərində də bu dövlətlərin real əməkdaşlığına imkanlar yaradır.

Həmin aspektdə Azərbaycan, Türkiyə və Gürcüstanın mürəkkəb geosiyasi şəraitdə belə təhlükəsizlik sahəsində əməkdaşlığı maraq doğurur. Onlar konkret proqramlar üzrə təlimlər keçirir, bu zaman enerji dəhlizlərinin təhlükəsizliyinin təmini ilə bağlı müxtəlif ssenariləri nəzərdən keçirirlər. Bu ilin sentyabrında bu çərçivədə xüsusi təyinatlıların keçirdikləri təlim ekspertlərin diqqətini çox çəkmişdi.

Bunlardan başqa, Azərbaycan, Türkiyə və Gürcüstanın müdafiə nazirləri mütəmadi olaraq görüşürlər. Bu görüşlərdə ciddi müzakirələr aparılır və əməkdaşlıq genişlənir. Aydın görünür ki, tərəflər səmərəli və konkret nəticə verən əməkdaşlıq edə bilirlər.

Nəhayət, Azərbaycan, Türkiyə və Gürcüstan terrorla mübarizədə də ortaq fəaliyyət göstərə bilirlər. Təcrübə göstərir ki, onlar ancaq NATO-nun həyata keçirdiyi proqramlar çərçivəsində deyil, özləri müstəqil olaraq terrorla mübarizəni apara bilərlər. Məsələnin bu tərəfi çox önəmlidir. Çünki sirr deyil ki, regionda terror dalğası yaratmaq arzusunda olan qüvvələr vardır.

Bunlar Azərbaycan, Türkiyə və Gürcüstanın Cənubi Qafqazda təhlükəsizlik sisteminin yaradılmasının aparıcı dövlətləri olduğunu təsdiq edir. İndiki mərhələdə Ermənistandan başqa regionda destruktiv mövqe tutan ölkə yoxdur. Maraqlıdır ki, Rusiyanın regional əməkdaşlıq və sabitliyə ciddi töhfələr verdiyi bir mərhələdə də Ermənistan konstruktiv addım atmaq istəmir. Bununla o, ümumiyyətlə, Cənubi Qafqazın təhlükəsizliyi üçün ciddi təhdid mənbəyi olduğunu təsdiqləyir. Ermənilər qonşularına qarşı ərazi iddialarından, görünür, əl çəkmək istəmirlər. Belə bir şəraitdə çətin ki, Moskva axıra qədər onu müdafiə etsin. Artıq bunun bir sıra əlamətləri özünü göstərir. Deməli, istisna deyil ki, yaxın perspektivdə Cənubi Qafqazın təhlükəsizlik sisteminin formalaşmasında Azərbaycan, Türkiyə, Gürcüstan və Rusiya daha sistemli, davamlı ortaq fəaliyyət göstərsinlər.

Ancaq burada Gürcüstan-Rusiya münasibətlərindəki müəyyən anlaşılmazlığı və münaqişələrin ədalətli həlli məsələsini nəzərə almaq gərəkdir. Qərb də Tbilisi ilə Moskva arasında münasibətlərin normallaşmasına açıq və ya gizli mane olur. Bu manеə dəf edilsə, Cənubi Qafqazın təhlükəsizlik sisteminin daha intensiv formalaşmasını müşahidə etmək mümkün olacaq.

Münaqişələrin ədalətli həlli isə strateji əhəmiyyətli məsələdir. O cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi danışıqlar yolu ilə və beynəlxalq hüquq normaları çərçivəsində həll edilməsə, konkret təhlükəsizlik modelindən danışmaq ciddi deyil. Bu baxımdan Rusiyanın necə hərəkət edəcəyindən çox şeylər asılıdır. Bizcə, indiki mərhələdə Cənubi Qafqazda təhlükəsizlik sisteminin formalaşması qarşısındakı ən böyük manеə Ermənistanın Azərbaycana təcavüzünün aradan qaldırılmamasıdır. Hələlik Ermənistan pozucu fəaliyyətini davam etdirir. Və deməli, region hələ də təhlükədədir, müxtəlif təbiətli risklər isə artmaqdadır.

**Newtimes.az**

# Mehriban Əliyevanın fəaliyyətində multikulturalizm dəyərləri: qeyri-Maddi İrsin qorunması



***"Azərbaycanın çoxmillətli və tolerant ölkə olması bizim böyük sərvətimizdir, üstünlüyümüzdür. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da - bütünlükdə, hamısı azərbaycanlıdır. "Azərbaycan" sözü bizi həmişə birləşdirib. Respublikamızın ən başlıca sərvəti əsrlərdən bəri bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olar". Ümummilli Lider Heydər Əliyevin söylədiyi bu dəyərli fikirlər, müasir dünyamızda milli-etnik və dini dözümlülük mühiti formalaşdırmaqla nəticələr çıxarmaq üçün olduqca ibrətamizdir.***

Azərbaycanda multikulturalizm bir dəyərlər toplusu, etnomədəniyyətlər çələngi kimi tarixən mövcud olmuşdur. Azərbaycan multikultural və tolerantlıq ənənələrini, etnik və milli-dini qruplar arasında gözəl harmonik münasibətləri bütün dünyaya çatdırmaqdadır. Cənab Prezident həmişə qeyd edir ki, multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. Multikulturalizmin daha da inkişaf etməsi üçün dövlət səviyyəsində hər zaman qayğı göstərilir. Tarixə nəzər salsaq, görərik ki, Alban kilsəsinin mövcudluğu, yəhudi icmasının, eləcə də, rus pravoslav icmasının burada məskunlaşması və digər amillər Azərbaycanda xalqların harmonik şəkildə birgə yaşamasının sübutudur.

Son iyirmi ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan multikulturalizminin hüquqi və siyasi qolunu qoyması bu sahədə yeni mərhələnin başladığını göstərirdi. Hal-hazırda Respublika Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu mərhələni layiqincə davam etdirirlər.

Multikulturalizm tədqiqatçısı britaniyalı Kənan Malik öz əsərində yazır ki, əgər 30 il bundan əvvəl multikulturalizmi onlarda mövcud olan sosial problemlərin həllinin bir vasitəsi kimi yanaşırdılarsa, indi artıq multikulturalizmə onların cəmiyyətində mövcud olan sosial problemlərin səbəbi kimi yanaşırlar. Bu sözdə artıq Qərb ölkələrinin multikulturalizmə münasibəti əks olunub. Doğrudan da, Qərb ölkələrində multikulturalizm bir siyasət kimi, ilk olaraq Amerikada, Kanada da, eləcə də, Avstraliyada meydana gəlmişdir. Çünki saydığımız ölkələrdə bu müxtəliflik onları tənzimləmək istiqamətində izolyasiya və assimilyasiya siyasətinin iflası, səmərəli olmaması multikulturalizm siyasətinə müraciət etməsinə gətirib çıxardı. Lakin sonradan bu multikulturalizm vasitəsilə tənzimlənən etnik müxtəliflik müəyyən problemlərin yaranmasına səbəb oldu. Belə ki, 2011-ci ildən ilk dəfə Britaniyanın baş naziri David Kemeron Münhendə keçirilən təhlükəsizlik üzrə toplantıda qeyd etdi ki, multikulturalizm bir siyasət kimi artıq özünü doğrulda bilmir, sonra eyni tərzdə Fransanın keçmiş prezidenti Nikola Sarkozi və Almaniyanın Kansleri Angela Merkel də bu fikirləri dəstəklədi.

Artıq bildiyiniz kimi, Yaxın Şərqdə baş verən münaqişələrlə bağlı, eləcə də, Şimali Afrikada olan iqtisadi tənəzzüllə bağlı həmin yerlərdən son dövrdə Avropaya çoxlu sayda qaçqınlar gələrək, siyasi sığınacaq istəyirlər. Artıq bu demokratiya, insan hüquqlarından car çəkən Qərb ölkələri açıq şəkildə insan hüquqlarını pozurlar. Varşavada ATƏT-in Demokratik İslahatlar və İnsan Hüquqları Bürosunun insan ölçüsü üzrə illik toplantısında ATƏT-ə üzv olan 57 ölkə ilə bərabər, bir çox qeyri-hökumət təşkilatları iştirak edirdi. Onlar aparıcı avropa ölkələrinin Britaniya, Almaniya, Fransa, Belçika və s. etnik-dini müxtəlifliyin tənzimlənməsinə dair siyasətini açıq şəkildə tənqid edirdilər. Belə bir möhtəşəm iclasda bu siqnalların verilməsi, doğrudan da, Qərb ölkələrinin ciddi problemlərlə üzləşdiyini göstərir.

Belə bir şəraitdə qaçqınlara və digər etnik-dini qruplara münasibətdə ölkəmiz insan hüquqları və demokratiya baxımından, bir çox ölkələr tərəfindən təqdirəlayiq qarşılanır.

BMT-nin Svilizasiyalararası Alyansının 7-ci Qlobal Formunda "Biz ən vacib zənginliyimizi qoruyub-saxladıq. Bu da insan kapitalı idi. Bütün çadır düşərgələrini ləğv etdik, qaçqın və məcburi köçkünlər üçün qəsəbələr yaratdıq. Gənc nəsil müasir təhsilə də çıxış əldə etdi. Amma bu, müvəqqəti müalicədir. Çünki insan qaçqındırsa, heç bir şərait doğma yerini əvəz edə bilməz. Bu problemin həllini tapması, işğal olunmuş torpaqların azad edilməsi, insanların evlərinə qayıtması lazımdır." Mehriban Əliyevanın bu çıxışı yuxarıda sadaladığımız məsələyə bariz nümunədir.

Azərbaycanın multikulturalizm ideyaları sayəsində bu sahədə qazandığı nailiyyətlərlə örnək və nümunəvi ölkəyə çevrilir. Obrazlı şəkildə qeyd etsək, deyə bilərik ki, ölkəmiz "Məğlubedilməz Qala"sını yaradır. Qeyd etmək lazımdır ki, respublikamızın bu sahədə nailiyyətlərinin istinad etdiyi bir mənbə var. Dövlətin siyasəti ilə yanaşı, Heydər Əliyev Fondunun gördüyü işlər əvəzsizdir. Xüsusilə, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bu sahəyə xüsusi diqqət ayırır.

1996-cı ildə Azərbaycan-YUNESKO arasında əməkdaşlıq haqqında Memorandum imzalanmışdır. Azərbaycan-YUNESKO münasibətlərinin inkişafında, bu münasibətlərin canlanması və gücləndirilməsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva əvəzolunmaz rola malikdir. Heydər Əliyev Fondunun təşkilatçılığı və Mehriban xanımın iştirakı ilə 2015-ci il sentyabrın 8-də "Parisin ürəyində Azərbaycan" adlı tədbir çərçivəsində dini tolerantlıq və birgə yaşayış mövzusunda konfrans keçirilmişdir. Sentyabrın 3-dən 9-dək məşhur Luvr Muzeyinin qarşısındakı Pale Royal meydanında ölkəmizin zəngin mədəniyyətini təqdim edən "Azərbaycan şəhərciyi" fəaliyyət göstərib. Həmçinin, dünyaca məşhur fotoqraf Reza Deqatinin "Azərbaycan tolerantlıq ölkəsi" sərgisi nümayiş olunub.

Elə həmin layihə çərçivəsində sentyabrın 8-də Parisdə "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda konfrans təşkil olunub. Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva konfransda iştirak edib. O, konfransda çıxış edərək ölkəmizin tarix boyu sivilizasiyaların və mədəniyyətlərin qovşağında yerləşdiyini, Azərbaycanda məscidlərin, kilsə və sinaqoqlarla yanaşı mövcud olduğunu, bütün dini azadlıqların təmin edildiyini diqqətə çatdırıb. Heydər Əliyev Fondunun digər dinlərə də xüsusi diqqət göstərdiyini deyən Mehriban Əliyeva Luvr Muzeyində islam mədəniyyəti bölməsinin təşkilində, yəhudi uşaqlar üçün

# Mehriban Əliyevanın fəaliyyətində multikulturalizm dəyərləri: qeyri-Maddi İrsin qorunması

təhsil imkanlarının yaradılmasında, Strasburq və Fransanın digər regionlarındakı kilsələrin təmirində Heydər Əliyev Fondunun yaxından iştirak etdiyini bildirib.

Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanda tolerantlığın dövlət siyasətinin mühüm istiqamətlərindən biri olduğunu deyib. Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Bakı Avropa Yəhudiləri Dini İcmasının sədri Gennadi Zelmanoviç Azərbaycan və yəhudi xalqlarının bir yerdə yaşamağın yaxşı nümunəsini nümayiş etdirdiklərini vurğulayıblar.

Fransa Yəhudi Təsisatları Əlaqələndirmə Şurasının nümayəndəsi Jan Pyer Alali, Fransa Müsəlmanları Şurasının vitse-prezidenti Tofiq Septi ölkəmizdə tolerantlıq mühitinin canlı şahidi olduqlarını bildiriblər.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr, Alban-Udin Dini İcmasının sədri Robert Mobili, Roma-Katolik Kilsəsinin Azərbaycandakı Apostol Prefekturasının ordinarisi Vladimir Fekete ölkəmizə bütün dini konfessiyaların fəaliyyətinə bərabər imkanlar yaradıldığını diqqətə çatdırıblar.

Eləcə də, qeyd etmək lazımdır ki, Roma katakombasının bərpası, Vatikan Apostil Kitabxanasındakı unikal əlyazmaların bərpası, Roma Katolik Muzeyinin filosoflar zalının təmiri və digər layihələrin təşkili müsəlman ölkəsi olaraq, Azərbaycanın atdığı mühüm addımlardan biridir. Heydər Əliyev Fondunun bu cür layihələri multikulturalizm sahəsində gözəl təşəbbüs olmaqla yanaşı, mədəniyyətlər və sivilizasiyalar arasında dialoq üçün əsl qlobal nümunədir.

Dövlət başçısı İlham Əliyevin 2015-ci il mayın 18-də Bakıda keçirilən "Mədəniyyəti ortaq təhlükəsizlik naminə paylaşaq" mövzusunda 3-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışında etdiyi çıxışda "Azərbaycanın mədəniyyətlərarası dialoqda, multikulturalizmin inkişafında öz rolunu oynadığını, ölkəmizin sivilizasiyaların, mədəniyyətlərin, dinlərin qovşağında yerləşdiyini və coğrafi mövqeyimizin ölkəmizin mədəni müxtəlifliyinə səbəb olduğunu diqqətə çatdırdı. Əsrlər boyu bir çox xalqların, mədəniyyətlərin, dinlərin nümayəndələrinin Azərbaycanda sülh şəraitində yaşadığını və ölkəmizin inkişafına öz töhfələrini verdiyini vurğulayan Prezident İlham Əliyev bildirdi ki, biz mədəni və tarixi irsimizlə fəxr edirik.

Tarixi İpək Yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir. 2016-cı il Azərbaycan Respublikasında "Multikulturalizm İli" elan edilməsi haqqında Prezident İlham Əliyevin verdiyi Sərəncamla bu sahəyə ayrılmış diqqət və qayğı özünü göstərir.

Heydər Əliyev Fondunun yaranması ilə aparılan yüksək səviyyəli islahatlar nəticəsində, 2003-2017-ci illər ərzində YUNESKO-nun sənədlərində Azərbaycan Qeyri-Maddi Mədəni İrs Siyahısına 13 Qeyri-Maddi Mədəni İrs nümunəsi daxil edilmişdir.

Mehriban Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı sayəsində muğam sənətinin qorunub-saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədi ilə 2005-ci ildən "Muğam televiziya müsabiqəsi" keçirməyə başlandı. 7 noyabr 2003-cü il tarixində Azərbaycan Muğamı YUNESKO tərəfindən bəşəriyyətin Qeyri-Maddi İrsinin şah əsəri elan olunmuşdur. 2008-ci ildə Azərbaycan muğamları YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

28 sentyabr - 2 oktyabr 2009-cu il tarixində Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilmiş YUNESKO-nun Qeyri - Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 4-cü Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, Azərbaycan Aşıq Sənəti YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir. Elə eyni sessiyada Novruz çoxmillətli nominasiya (Azərbaycan, Hindistan, İran, Qırğızıstan, Pakistan, Türkiyə, Özbəkistan) kimi YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

"Ənənəvi Azərbaycan Xalçaçılıq Sənəti" 15-19 noyabr 2010-cu il tarixində Keniyanın Nayrobi şəhərində keçirilən YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin 5-ci Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

"Tar və Onun İfaçılıq Sənəti" 3-7 dekabr 2012-ci il tarixində Parisdə keçirilən YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin 7-ci Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, "Tar və onun ifaçılıq sənəti" YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

"Azərbaycan Respublikasında Çovqan Ənənəvi Qarabağ Atüstü Oyunu" 2-8 dekabr 2013-cü ildə Bakıda keçirilən YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 8-ci Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, YUNESKO-nun Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir.

"Ənənəvi Kəlağayı sənəti və simvolizmi, qadın ipək baş örtüklərinin hazırlanması və istifadə olunması" 24-28 noyabr 2014-cü il tarixində Parisdə keçirilən Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 9-cu sessiyasında YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

"Lahıcın misgərlik sənəti" 30 noyabr - 4 dekabr 2015-ci il tarixində Namibiyada keçirilmiş Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 10-cu sessiyasında YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

"Nazik çörəyin hazırlanma və paylaşma mədəniyyəti: Lavaş, Katırma, Jupka, Yufka" 28 noyabr-2 dekabr 2016-cı il tarixlərində Efiopiyanın Əddis-Əbəbə şəhərində keçirilmiş YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 11-ci sessiyası çərçivəsində çoxmillətli nominasiya (Azərbaycan, İran, Qazaxıstan, Qırğızıstan və Türkiyə) kimi YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

YUNESKO-nun Dünya Yaddaşı Proqramının Beynəlxalq Məşvərət Komitəsinin (İAC) 2017-ci il 24-27 oktyabr tarixlərində keçirilmiş toplantısında 2016-2017 nominasiya dövrü üzrə Məhəmməd Fizulinin "Divan" əlyazmasının sürəti Dünya Yaddaşı Proqramının Beynəlxalq Reyestrinə daxil edilməsi üçün YUNESKO Baş Direktoruna tövsiyə edilmişdir. Füzulinin "Divan" əlyazmasının sürətinin Dünya Yaddaşı Proqramının Beynəlxalq Reyestrinə daxil edilməsindən sonra, reyestrdə Azərbaycanın yazılı irsinə aid artıq ölkəmizin "Orta əsrin tibb əlyazmaları" sənədi də daxil olmaqla, 2 nominasiya yer alır.

2005-ci ilin payızında YUNESKO Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda mühafizə olunan üç orta əsr tibb əlyazmasını, rəsmi olaraq, "Dünya Yaddaşı" Proqramının Reqistrinə daxil etdi. Həmin siyahıya dünyanın ən unikal və əvəzolunmaz yazılı abidələri daxildir. Bu qərarı təsdiqləyən Sertifikat Əlyazmalar İnstitutuna YUNESKO-nun baş katibi Koişiro Matsuura tərəfindən təqdim edilmişdir.

Dolma (sarma)- Azərbaycanın qədim milli xörəklərindən biridir. Dünyada dolmanın 30-a yaxın növü var . Dolma qədim türk sözü olub, mənaca "dolmaq" felindən götürülüb. Bəzi regionlarda buna "sarma" da deyirlər. Bu da, "sarmaq" felindən götürülüb. Qədim istifadə olunan məhsullardan və texnologiyadan asılı olaraq, müxtəlif növləri vardır. 2017-ci ildə Azərbaycanda "Dolma hazırlanması və bölüşdürülməsi ənənəsi mədəni identikliyin göstəricisi" kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına salınmışdır.

"Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti" YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edilib. Bu qərar YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitənin 12-ci sessiyasında Azərbaycan və İranın birgə təqdim etdiyi nominasiya qəbul edilib. Kamança Azərbaycanın ən qədim musiqi alətlərindən biridir. "Kamança" adıyla bu alət Azərbaycanda, İranda, Qafqazın müxtəlif ölkələrində tanınır. Misirdə "Kamanqa", Orta Asiyada isə "Qişek" adlanır.

Dəfələrlə YUNESKO-dakı konsertlərdə, məhz Azərbaycan musiqiçiləri kamançada ifalar səsləndirib. Azərbaycan Nümayəndə Heyəti adından çıxış edən ölkəmizin YUNESKO yanında Daimi Nümayəndəsi, səfir Anar Kərimov bildirib ki, kamança sənəti ölkəmizin sərhədlərindən daha geniş coğrafiyanı əhatə edir, bu yüzilliklər boyu nəsillərdən nəslə ötürülən mədəni mənsubiyyət nümunəsidir. Müzakirələr zamanı erməni tərəfi, hər zaman olduğu kimi, kamançaya da sahib çıxmağa çalışaraq, təxribatçı şıxışlar ediblər. Onlar kamançanın Azərbaycanın deyil, Ermənistanın qədim musiqi aləti olması ilə bağlı cəfəng iddialar irəli sürüblər. Amma onların təxribatının qarşısı alınıb. Azərbaycan nümayəndələri faktlara söykənən dəlillərə əsas gətirərək, kamançanın, məhz Azərbaycana adi olmasını qarşı tərəfin diqqətinə çatdırıblar. Türkiyənin YUNESKO-dakı Nümayəndə Heyətinin üzvləri də Azərbaycana dəstək nümayiş etdirib. Musiqişünaslar ermənilərin YUNESKO-nun qəbul etdiyi qərara qarşı çıxmasına təəccüblənməyiblər. Çünki bu, ilk hal deyil. Əvvəllər də mənfur qonşularımızın Azərbaycan musiqilərinə və musiqi alətlərinə sahib çıxmaq cəhdləri olub. Amma onların bu iddialarının qarşısı həmişə alınıb. Musiqişünaslar deyirlər ki, ermənilər kamançada ifa etməyi birgə yaşadığımız dövrlərdə Azərbaycandan öyrəniblər. Onlar muğamı bilmədiyi üçün azərbaycanlı xanəndənin və tarın ifasını kamançada təkrar edirdilər. Bununla da, onlar bu bilikləri mənimsəyərək kamançanı özlərininki sayır və müxtəlif əsassız iddialara irəli sürürdülər. 2018-ci ildə Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmiş YALLI ənənəvi qrup rəqsləri, xüsusilə, kollektiv çıxışlara əsaslanan rəqs nümunələridir. Yallı rəqs birliyi müxtəlif bayram və tədbirlərdə müstəqil şəkildə və ya planlaşdırılmış qaydada rəqsləri səhnələşdirən təlim keçmiş rəqqaslardan ibarətdir.

2019-cu ilin böyük uğurlarından biri də Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında Azərbaycanın "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir. Azərbaycanın ən qədim şəhərlərindən olan Şəkinin tarixi hissəsi yüzillər boyu ölkəmizin mədəniyyət mərkəzlərindən biri kimi tanınmışdır. Unikal abidələrlə zəngin Şəki şəhərinin tarixi hissəsinin mühafizəsi və inkişafı daim dövlətin diqqətində saxlanılmışdır.

Dövlət başçısı İlham Əliyev Azərbaycan xalqını təbrik edərək bildirmişdir ki, Şəkinin tarixi mərkəzində keçmişimizi özündə təcəssüm etdirən Şəki Xan Sarayı, karvansaraylar, məscid və minarələr, qədim körpülər, sənətkarlıq emalatxanaları və yaşayış evləri bu gündən etibarən təkcə xalqımızın deyil, bəşəriyyətin mədəni irsi hesab olunur."Azərbaycan sülhsevər, qədim sivilizasiyaya, qədim mədəniyyətə və tarixə malik olan bir ölkədir. Ölkəmizdə dini və ya milli zəmində heç zaman heç bir qarşıdurma olmayıb və bu gün də yoxdur. Əsrlər boyu Azərbaycanda müxtəlif dinlərin, mədəniyyətlərin, millətlərin nümayəndələri sülh, qarşılıqlı hörmət şəraitində yaşayıblar. Təsadüfi deyil ki, bu gün də Azərbaycan dünyada mutlikulturalizm mərkəzlərindən biri kimi tanınır." Ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 25-də Romadakı "Custiniani" Sarayında keçirilən "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq münasibətləri" adlı konfransdakı çıxışında diqqətə çatdırdı. Səslənən bu fikirlər Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda bir daha etirafıdır.

***Nərmin Əhmədova,***
***"ASAN Xidmət" in böyük məsləhətçisi, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının, "Dövlət və Bələdiyyə İdarəetməsi" ixtisası üzrə ikinci kurs tələbəsi***

# Azərbaycan, Pakistan və Türkiyə dostluğu Los-Ancelesdə qeyd olunub



Azərbaycan, Pakistan və Türkiyə dövlətləri və xalqları arasındakı dostluq və qardaşlıq münasibətlərinə həsr olunmuş ikinci illik tədbir keçirilib. Tədbir hər üç ölkənin Los Ancelesdəki Baş Konsulluqlarının birgə təşkilatçılığı ilə təşkil edilib.

Qeyd edək ki, birinci illik tədbir 2018-ci ildə Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğunda keçirilmişdi. Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğundan SİA-ya verilən məlumata görə, bu dəfə Türkiyənin Baş Konsulluğunun ev sahibliyi etdiyi tədbirdə sözügedən ölkələrin baş konsulları, Kaliforniyadakı Azərbaycan, Türkiyə və Pakistan icmalarının rəhbərləri və üzvləri, tanınmış ictimai xadimlər və jurnalistlər iştirak edib.

Hazırda Los Ancelesdə səfərdə olan Dağlıq Qarabağın azərbaycanlı icmasının nümayəndə heyəti, o cümlədən icmanın sədri Tural Gəncəliyev, nümayəndə heyətinin üzvləri Gülməmməd Məmmədov, Dürdanə Ağayeva və Ceyhun Ələkbərov da tədbirdə iştirak ediblər.

150-dək icma üzvünün qatıldığı tədbir hər üç ölkənin dövlət himnlərinin ifası ilə başlamışdır. Azərbaycanın Los Ancelesdəki baş konsulu Nəsimi Ağayev üç ölkə arasında həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın yüksək səviyyədə olduğunu diqqətə çatdırıb. O, Pakistan və Türkiyənin xüsusilə Ermənistan-Azərbaycan münaqişəsində ölkəmizə göstərdikləri hərtərəfli dəstəyin Azərbaycan hökuməti və xalqı tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb. Diplomat, Pakistanın işğalçı Ermənistanı dövlət kimi tanımamasını və Türkiyənin Ermənistanla sərhədlərinin bağlı saxlanılmasının hər iki qardaş ölkənin Azərbaycan ilə həmrəyliyinin bariz göstəriciləri olduğunu qeyd edib.

Türkiyənin Los Ancelesdəki baş konsulu Can Oğuz üç ölkə arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini qeyd edərək, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın vacibliyindən danışıb və hər üç icmanın öz güclərini birləşdirməsinin önəmini vurğulayıb. Pakistanın Los Ancelesdəki baş konsulu Abdul Cabbar Memon çıxış edərək, üç ölkə arasında sıx münasibətlərin Los Ancelesdəki Baş Konsulluqlar və buradakı icmalar arasındakı münasibətlərə çox önəmli təsir göstərdiyini bildirib. Bu kimi birgə tədbirlərin davamlı olacağına əminliyini ifadə edən baş konsul, 2020-ci ildəki 3-cü illik tədbirə Pakistan Baş Konsulluğu olaraq evsahibliyi edəcəklərini elan edib. Hər iki baş konsul Azərbaycan torpaqlarının işğalının davam etməsinin qeyri-məqbul olduğunu bildirərək, təmsil etikləri dövlətlərin Azərbaycanın haqq səsini daim dəstəklədiklərini vurğulayıblar.

Tədbirin əsas natiqi qismində çıxış edən Dağlıq Qarabağın azərbaycanlı icmasının sədri Tural Gəncəliyev Ermənistanın Azərbaycana qarşı işğalçılıq və etnik təmizləmə siyasəti barədə danışaraq, bu işğal nəticəsində yüzminlərlə azərbaycanlının didərgin salındığını və bu gün də məcburi köçkün kimi yaşadıqlarını diqqətə çatdırıb. T.Gəncəliyev bildirib ki, bu qədər insanın əsrlər boyu yaşadıqları öz ana yurdlarından məhrum edilmələri böyük bir hüquq pozuntusu, cinayət və ədalətsizlikdir ki, bu da tezliklə aradan qaldırılmalı, işğala son qoyulmalı və azərbaycanlılar öz torpaqlarına qayıtmalıdırlar. T.Gəncəliyev Türkiyə və Pakistan icmalarına Azərbaycanın haqlı mövqeyinə Los Ancelesdə verdikləri dəstəyə görə təşəkkürünü bildirib.

Tədbirdə həmçinin Pakistan mənşəli yerli siyasətçilər, o cümlədən Örvayn şəhər şurasının üzvü Fərəh Xan və Los Anceles şəhərinin İnsan Haqları üzrə müvəkkili Amna Qazi çıxış ediblər.

Sonra Kaliforniya Azərbaycan Dostluq Assosiasiyasının icraçı direktoru Kimiya Məmmədova, Pakistan Şurasının sədri Adnan Xan və Türkiyə icmasının liderlərindən Mətin Məngir çıxış edərək, Azərbaycan, Pakistan və Türkiyə icmalarını bir araya gətirmək təşəbbüsünü alqışladıqlarını və bu tədbirin hər üç icmanı bir-birilərinə daha da yaxınlaşdıracağına ümidvar olduqlarını bildiriblər. Tədbir iştirakçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

# Bəhruz Quliyev: "Azərbaycanın mötəbər təşkilatlarda yüksək mövqeyə sahib olması bir reallıqdır"



"Azərbaycan dövləti müasir dünyanın siyasi tarixində özünün mötəbər imzasını qoyur və bu imza gələcək nəsillər üçün də bir örnəkdir". Bu fikirləri Olaylar.az-a "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Prezident İlham Əliyevin apardığı uğurlu siyasəti, o cümlədən, ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun artırılması istiqamətində gördüyü davamlı işləri-ni şərh edərkən deyib.

Onun sözlərinə görə, bu yaxınlarda Azərbaycan özündə 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına sədrliyi qəbul etdi və həmin faktın özü artıq sübut edir ki, belə bir nüfuzlu beynəlxalq təşkilata sədrlik etmək ölkəmizə verilən ən ali qiymətlərdən biridir: "Əlbəttə ki, Hərəkatın prioritet məsələləri daim dünya ictimaiyyətinin diqqəti mərkəzində olur və cənab İlham Əliyev sədrliyi qəbul edərkən bir sıra əhəmiyyətli məqamlara toxunaraq vurğuladı ki, təşkilatın bütün üzvləri, o cümlədən Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması üçün səylərini artırmalıdır. Həmçinin qeyd olunub ki, Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi dövründə digər təsisatlarla dialoqun qurulması və inkişaf etdirilməsi, əməkdaşlığın coğrafiyasının genişləndirilməsi üçün səylər göstərəcək. Təkcə bu kimi mühüm prinsipin təhlilini apararsaq belə bir nəticə hasil etmək olar ki, artıq Azərbaycan dövləti Hərəkat çərçivəsində iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsini çox əhəmiyyətli hesab edir. Əlbəttə ki, bu eyni zamanda Azərbaycanın sabit və tərəqqi edən ölkə olması ilə yanaşı, həm də iqtisadi cəhətdən dinamik inkişaf yolu tutmasının, habelə digər sahələrdə də eyni mövqeni nümayiş etdirməsinin sübutudur.

Baxın, ölkə başçımızın da vurğuladığı kimi, Azərbaycan dövləti 2005-ci ildən etibarən 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstərib. Ölkəmiz Beynəlxalq İnkişafa Yardım Agentliyi müxtəlif ölkələrdə yoxsulluğun azaldılması, elm, mədəniyyət, səhiyyə, informasiya texnologiyalarını inkişafı, su resurslarından səmərəli istifadə olunması, qrant proqramları və digər sahələrdə layihələr həyata keçirir və s. O cümlədən, Qoşulmama Hərəkatının 2030-cu ilə qədər fəaliyyətində də ölkəmizin sədrliyinin öz töhfələri olacaq. Bakı görüşündə həmin ilə qədər Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində göstərilən səylərin artırılmasının, iqlim dəyişikliyi, miqrasiya, qaçqın və köçkün problemlərinin qarşısının alınmasının, dünyada sülhün və təhlükəsizliyin təmin olunmasının, transmilli cinayətkarlığa qarşı mübarizənin, kütləvi qırğın silahların yayılmasının qarşısının alınmasının, ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsinin önəmi vurğulandı, Qoşulmama Hərəkatına üzv dövlətlərin bu sahədə birgə əməkdaşlığının vacibliyi diqqətə çatdırıldı ki, bu da ölkəmizin beynəlxalq aləmdəki söz sahibliyi funksiyasını təsdiq etmiş oldu. Əbəs deyil ki, çıxış edən xarici qonaqlar və s. Zirvə Görüşünü yüksək səviyyədə təşkil etdiyinə və nümayəndə heyətlərinə göstərilən qonaqpərvərliyə görə cənab İlham Əliyevə, Azərbaycan hökumətinə və xalqına minnətdarlıqlarını bildirdilər. Bu, bilavasitə beynəlxalq aləm tərəfindən dövlətimizə göstərilən yüksək inam və ali etimaddır".

Bəhruz Quliyev Qoşulmama Hərəkatında Azərbaycanın əldə etdiyi daha bir fakta da toxunaraq bildirdi ki, dövlət başçımız elektrik enerjisinin istehsalı üçün Azərbaycanda ancaq ekoloji təmiz qaz və su elektrik stansiyalarından istifadə olunduğunu vurğulayıb və eyni zamanda Davos Ümumdünya İqtisadi Forumunun hesabatına istinad edərək elektrik enerjisinin əlçatanlıq əmsalına görə ölkəmizin dünyada ikinci yerdə olduğunu xatırladıb: "Söz yox ki, ölkəmizin iqtisadi, enerji və s. sahələri ilə yanaşı, kosmik inkişaf mərhələsini də sürətlə keçməsi təkzibolunmaz faktlara əsaslanır. Bu baxımdan, dünyanın enerji təhlükəsizliyinin təminatçısı kimi Azərbaycanın mötəbər təşkilatlarda yüksək mövqeyə sahib olması bir reallıqdır. Ümumiyyətlə, əldə edilən nailiyyətlərimizin təməlində dayanan gerçəklik amili həm də budur ki, bu gün Azərbaycan dövlətinin başçısı cənab İlham Əliyevin apardığı daxili və xarici siyasət həm xalqımız tərəfindən, həm də beynəlxalq qurumlar tərəfindən dəstəklənir, alqışlanır. Qoşulmama Hərəkatının Bakıda keçirilməsi, ölkəmizin bu quruma sədrliyə keçməsi də qeyd edilən bütün fikirlərin danılmaz sübutudur".

# Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Sergey Lavrovun fikirləri ilə bağlı bəyanat yayıb

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun fikirləri ilə bağlı bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq bəyan edirik ki, Sergey Lavrov kimi təcrübəli bir diplomatın bu cür ifadələr səsləndirməsi ciddi təəssüf və təəccüb doğurur. Keçən ay Rusiyanın Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxış edən Prezident İlham Əliyev bu məsələyə aydınlıq gətirərək bildirmişdi ki, "Dağlıq Qarabağ xalqı" anlayışı yoxdur. Dağlıq Qarabağın əhalisi var, münaqişə başlayana qədər bu, bərabər hüquqlara malik olan Azərbaycan və erməni əhalisindən ibarət idi. Dağlıq Qarabağın Azərbaycan əhalisi Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində işğal olunmuş digər 7 rayonun əhalisi kimi etnik təmizləməyə məruz qalmışdır.

Münaqişənin həllinə məsul olan ATƏT-in Minsk prosesi çərçivəsində Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları maraqlı tərəflər kimi müəyyən olunmuşdur. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mühüm beynəlxalq təşkilatların sənədlərində də heç vaxt "Dağlıq Qarabağ xalqı" məfhumu qeyd edilməyib.



Xatırlatmaq istərdik ki, 2019-cu ildə Rusiyanın da təmsil olunduğu ATƏT-in Minsk qrupunun həmsədrləri iki dəfə regiona səfər edib və hər iki səfərin yekun birgə bəyanatlarında Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları ilə görüşdüklərini ayrıca qeyd ediblər.

Sergey Lavrovun brifinqdə səsləndirdiyi fikirlər həm də ona görə təəssüf hissi doğurur ki, o, Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən və ətraf 7 rayondan 1 milyondan çox köçkün düşmüş azərbaycanlının öz torpaqlarına geri qayıtmaq hüququnu brifinqdə vurğulamır.

Azərbaycan üçün hansı həll variantının məqbul olmasına gəldikdə isə o, Azərbaycanın bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa olunması, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmasından ibarətdir. Bu, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və Helsinki Yekun Aktının tələbidir.

Rusiya Xarici İşlər naziri Sergey Lavrov özü də beynəlxalq tədbirlərdə çıxışı zamanı BMT Nizamnaməsinə riayət edilməsi və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsini tələb edir və buna görə digər dövlətləri tənqid edir.

Biz Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq bir daha bəyan edirik ki, icmamızın 80 mindən çox azərbaycanlı üzvü öz yurduna geri qayıdacaqları günü gözləyir. Biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə vasitəçilik missiyası həyata keçirən həmsədr dövlətlərdən və nüfuzlu beynəlxalq təşkilatlardan ədalətli mövqe gözləyirik. Yalnız bundan sonra Dağlıq Qarabağda sülh bərqərar ola və keçmişdə olduğu kimi, azərbaycanlılarla ermənilər sülh şəraitində Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində yaşaya bilərlər.

# Ermənistan Azərbaycanla Gürcüstan arasında qardaşlıq və dostluq münasibətlərinə həmişə nifaq salmağa çalışır

***Son aylarda Qazax istiqamətində Azərbaycan-Ermənistan sərhəd xəttində baş verən hadisələr birmənalı olaraq göstərir ki, Azərbaycan sərhədçiləri heç şübhəsiz və strateji əhəmiyyətli uğurlar qazanıb. Bununla əlaqədar, erməni tərəfin öz uğursuzluqlarını gizlətmək üçün Azərbaycan hərbi qulluqçularının guya Gürcüstan ərazisini tutmasında ittihamlarla gizlətmək cəhdlərinin, habelə real məğlubiyyətlərini "müzəffər" relyasiyalar kimi qələmə vermək səylərinin ətraflı təhlili xüsusi əhəmiyyət kəsb edir.***

AZƏRTAC bu hadisələrin hərbi-siyasi təhlilini təqdim edir.

Azərbaycan ilə Gürcüstan arasına nifaq salmaq, ölkələrimizin qardaşlıq və dostluq münasibətlərinə xələl gətirmək cəhdləri bu gün və hətta dünən də başlamayıb. Erməni tərəfi faşist Almaniyasının baş ideoloqu Yozef Göbbelsin məşhur vəsiyyətlərinə israrla riayət etməyə çalışır. Göbbelsin "min dəfə təkrarlanan yalan həqiqətə çevrilir" sözləri öz uğursuzluqlarını inkar etmək siyasətinin və ağlasığmaz ümidlərinin reallaşması naminə böhtan insunasiyalarında manyakcasına inadkarlığın mahiyyətini çox gözəl ifadə edir. Obyektiv təhlil qaydaları hadisələrin müqayisəli və xronoloji baxımdan dəqiq tutuşdurulmasını tələb edir və tərəflərin əsl məqsədlərini kifayət qədər dəqiq üzə çıxarmağa imkan verir. Bu hədəflər isə çox vaxt hadisələrin zahiri formaları arxasında gizlənir. Biz də bu qaydaya riayət edərək dövlət sərhədində baş verən hadisələrin xronoloji ardıcıllığını nəzərdən keçirməyə və erməni tərəfin əslində pis oyun zamanı yaxşı mina nümayiş etdirməyə yönəlmiş indiki addımlarının real mahiyyətini göstərməyə çalışacağıq.







2018-ci ilin sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq qərarına əsasən, Ermənistanla dövlət sərhədinin Qazax və Ağstafa rayonlarının ərazisindəki hissəsinin qorunması Azərbaycan Dövlət Sərhəd Xidmətinə həvalə edilib. Bu, Azərbaycanın ali rəhbərliyinin həmin istiqamətdə gərginliyi azaltmaq və sərhəd infrastrukturunu təkmilləşdirmək istəyinin göstəricisidir.

Bu qərardan dərhal sonra Azərbaycan Sərhəd Xidməti dövlət sərhədində xidmət keçmək, sərhəd döyüş postları tikintisi və onların təchizatı üçün zəruri şərait yaradılması üzrə irimiqyaslı tədbirlər həyata keçirməyə başladı. Qısa müddətdə bu istiqamətdə yeni sərhəd postları istifadəyə verildi, sərhəd mövqeləri arasında təhlükəsiz gediş-gəliş məsələləri həll edilir, digər keyfiyyət dəyişiklikləri baş verir. Bunlar şəxsi heyətin döyüş ruhunun yüksəlməsi ilə müşayiət olunur, bu isə qarşı tərəfi narahat etməyə başlayır.

Erməni tərəfi əvvəlcə həmin dəyişiklikləri özü üçün əlverişli hesab edirdi, onun fikrincə Azərbaycan sərhədçiləri döyüş əməliyyatları aparmağı "bacarmazlar", buna görə də 2019-cu il yanvarın 12-də Azərbaycan sərhədçilərini "yoxlamağa" cəhd göstərir - mühəndis texnikası iriçaplı atıcı silahlardan atəşə tutulur və bunun müqabilində ermənilər layiqli cavabını alır.

Martın əvvəlində Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçuları yol-mühəndis işləri aparılması bəhanəsi ilə öz mövqelərini dövlət sərhəd xətti boyunca irəlilətməyə başlayır. Onların əsl məqsədi isə tərəflərin döyüş mövqeləri arasındakı ərazidə hakim yüksəklikləri ələ keçirmək idi. Azərbaycan tərəfi düşmənin bu niyyətini vaxtında aşkar edir (bax: peyklə çəkilmiş 1-ci şəkil - erməni silahlı qüvvələri tərəfindən 2019-cu il martın 13-16-da döyüş postlarının irəli çəkilməsi ilə bağlı mühəndis işləri).

Erməni bölmələrinin daha əlverişli mövqelərdə möhkəmlənməsinə yol verməmək üçün onları qabaqlamaq və sərhəd döyüş mövqelərini sərhəd xəttinə qədər irəli çəkmək barədə qərar qəbul edilir. Qeyd etmək lazımdır ki, dövlət sərhəd xəttinə kifayət qədər yaxın (80-230 metr) yerləşən erməni tərəfin mövqelərindən fərqli olaraq, o vaxt Azərbaycan tərəfin döyüş mövqeləri sərhəd xəttindən təqribən 2 kilometr aralı idi. İntensiv atəşlərə baxmayaraq və şəxsi heyətin səyləri, habelə onların hərəkətlərinə taktiki baxımdan savadlı rəhbərlik edilməsi sayəsində artıq martın 28-də sərhəd xəttindən təqribən 300 metr aralıda yerləşən hakim yüksəklikdə Azərbaycan sərhədçilərinin yeni döyüş postu qurulur (bax: peyklə çəkilmiş 2-ci və 3-cü şəkillər - erməni silahlı qüvvələri tərəfindən 2019-cu il martın 28-nə qədər döyüş postlarının irəli çəkilməsi üzrə mühəndis işləri). Beləliklə, düşmənin öz mövqelərini irəli çəkmək niyyəti tamamilə neytrallaşdırılır və bu niyyət öz mənasını itirir, erməni silahlı qüvvələrinin yeganə çarəsi Azərbaycanın qürurla dalğalanan milli bayrağını yaxınlıqda köməksiz halda müşahidə etməyə qalır.

Bu vəziyyətlə barışmaq istəməyən erməni tərəfi iyun ayında dövlət sərhədi istiqamətində öz mövqelərini irəlilətmək məqsədilə növbəti dəfə provokasiyaya əl atır və Azərbaycan sərhədçiləri onları qabaqlamaq məqsədilə yenidən təsirli tədbirlər görməyə məcbur olur. Nəticədə iyulun axırlarında Azərbaycan sərhədçiləri öz döyüş mövqelərini irəliləd ir və sərhəd xəttinin bilavasitə yaxınlığında hakim yüksəklikdə möhkəmlənir (bax: peyklə çəkilmiş 4-cü şəkil - erməni silahlı qüvvələri tərəfindən 2019-cu il iyulun 31-nə qədər döyüş postlarının irəli çəkilməsi üzrə mühəndis işləri). Bunun sayəsində erməni silahlı qüvvələrinin bir neçə döyüş mövqeyi, həmçinin Gürcüstandan Ermənistana gedən qaz boru kəməri və qaz-kompressor stansiyası (bax: şəkil 5) Azərbaycan sərhədçilərinin tam nəzarəti altına düşür. Bu, erməni tərəfi üçün əsl şok olur.

Erməni tərəfi buna cavab olaraq, snayperləri ön mövqelərə hərəkət etdirir, onların atəşləri nəticəsində Azərbaycanın iki sərhədçisi yaralanır (http://armiya.az/ru/news/148880/%D0%90%D1%80%D0%BC%D1%8F%D0%BD%D0%B5-%D1%80%D0%B0%D0%BD%D0%B8%D0%BB%D0%B8-%D0%B0%D0%B7%D0%B5%D1%80%D0%B1%D0%B0%D0%B9%D0%B4%D0%B6%D0%B0%D0%BD%D1%81%D0%BA%D0%BE%D0%B3%D0%BE-%D0%BF%D0%BE%D0%B3%D1%80%D0%B0%D0%BD%D0%B8%D1%87%D0%BD%D0%B8%D0%BA%D0%B0, http://armiya.az/ru/news/148381/%D0%90%D1%80%D0%BC%D1%8F%D0%BD%D0%B5-%D0%BE%D0%B1%D1%81%D1%82%D1%80%D0%B5%D0%BB%D1%8F%D0%BB%D0%B8-%D0%B0%D0%B7%D0%B5%D1%80%D0%B1%D0%B0%D0%B9%D0%B4%D0%B6%D0%B0%D0%BD%D1%81%D0%BA%D0%B8%D1%85-%D0%BF%D0%BE%D0%B3%D1%80%D0%B0%D0%BD%D0%B8%D1%87%D0%BD%D0%B8%D0%BA%D0%BE%D0%B2-%D0%B5%D1%81%D1%82%D1%8C-%D1%80%D0%B0%D0%BD%D0%B5%D0%BD%D1%8B%D0%B9), avtomobil texnikasına, o cümlədən tibb maşınına bir neçə güllə dəyir, bu isə müharibə aparılmasının hamılıqla qəbul edilmiş bütün qanunlarına ziddir. Bunun cavabında Azərbaycan tərəfi şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi üçün müvafiq tədbirlər görür, nəticədə düşmən tərəfin bir snayperi məhv edilir (https://ru.armeniasputnik.am/politics/20191003/20640194/V-Tavushe-vsledstvie-strelby-VS-Azerbaydzhana-pogib-28-letniy-armyanskiy-kontraktnik.html) və erməni silahlı bölmələrinin bir neçə hərbi qulluqçusu yaralanır. Bu fakt Ermənistan KİV-ləri tərəfindən də təsdiqlənir ((https://ru.armeniasputnik.am/incidents/20190729/19831771/MID-Armenii-soobschilo-o-gibeli-odnogo-i-ranenii-2-voennykh-na-granitse-s-Azerbaydzhanom.html).

Bəs həmin vaxtda erməni tərəfi nə edir? Düz fikirləşirsiniz. Həqiqətə tam zidd olan ictimai rəy formalaşdırmağa başlayır. Məsələn, Ermənistan Müdafiə nazirinin müavini Qabriyel Balayan avqustun 12-də Azərbaycanla həmsərhəd Tavuş istiqamətində erməni ordusunun mühüm uğurları barədə bəyanatla çıxış edir (https://ru.armeniasputnik.am/society/20190812/20036476/Armyanskie-VS-poluchili-preimuschestvo-nadryadom-pozitsiy-Azerbaydzhana—-Balayan.html). Lakin onlar burada da, necə deyərlər, uğursuzluğa düçar olur. Avqustun 16-da Azərbaycan Dövlət Sərhəd Xidməti DSX-nin nümayəndəsi general-mayor Elçin İbrahimovun şəxsində bu informasiyanı tamamilə təkzib edən bəyanatla çıxış edir və göstərir ki, əksinə, təmas xəttində strateji üstünlük Azərbaycan tərəfinə məxsusdur.

Təəssüf ki, bundan sonra dövlət sərhədində vəziyyət gərgin olaraq qalır. Erməni tərəfi Azərbaycan sərhədçiləri tərəfindən layiqincə dəf edilməsinə baxmayaraq, atəşkəs rejimini pozmaqda israrla davam edir, nəticədə 61 yaşlı azərbaycanlı ekskavatorçu ölümcül yaralanır və bunun cavabında Azərbaycan sərhədçiləri düşmənin bir neçə hərbi qulluqçusunu neytrallaşdırır (https://ru.armeniasputnik.am/politics/20191003/20640194/V-Tavushe-vsledstvie-strelby-VS-Azerbaydzhana-pogib-28-letniy-armyanskiy-kontraktnik.html,http://armenianreport.com/pubs/228991/, http://armenianreport.com/pubs/228983/).

**Ardı Səh. 12**

# Ermənistan Azərbaycanla Gürcüstan arasında qardaşlıq və dostluq münasibətlərinə həmişə nifaq salmağa çalışır






Əvvəli-Səh-11

Erməni tərəfin gərginliyi artırmaqda əsas məqsədinin nə olduğunu soruşsaq, bu sualın ən məntiqi cavabı belə olar ki, onlar Azərbaycan sərhədçilərini cavab tədbirləri görməyə təhrik etmək və bu fonda özlərini zərərçəkmiş tərəf kimi qələmə vermək, bundan istifadə edərək Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının müvafiq mexanizmlərinə təsir etməyə çalışmaq istəyirlər. Təxminən 30 il bundan əvvəl belə "fəndlər" ermənilərə ciddi üstünlük gətirmişdi, lakin xoşbəxtlikdən indi zəmanə dəyişib və bütün dünya ermənilərin yalanları və məkrliliyi barədə kifayət qədər məlumatlıdır.

Yuxarıda deyilənləri yekunlaşdıraraq, bu nəticələrə gəlmək olar: təmas xəttində gərginliyin artırılması ilə bağlı bütün halların təşəbbüskarı Ermənistan silahlı qüvvələrinin bölmələri olub. Həm mart ayında, həm də iyun ayında erməni tərəfin provokasiyaları bumeranq effekti ilə başa çatıb, yəni onların hərəkətlərinə cavab olaraq Azərbaycan sərhədçiləri həmhüdud ərazinin strateji əhəmiyyətli hissələrini öz nəzarəti altına götürüb və ermənilərin təhrikçiliyinə qarşı aparılan əks əməliyyat nəticəsində Azərbaycan sərhədçilərinin döyüş mövqeləri 1,5-1,7 kilometr irəliləyib və erməni ordusunun döyüş mövqeləri bizimkilərin tam nəzarəti altına düşüb (Bunun nəticəsində Ermənistanın neçə hektar ərazisi Azərbaycan sərhədçilərinin nəzarəti altına keçməsi barədə nəticə çıxarmağı oxuculara həvalə edirik).

Bəs bu vəziyyətdə erməni silahlı qüvvələrinin komandanlığı nə edir? Onlar özlərini hərbi avantürasına və döyüşdə məruz qaldığı itkilərə görə məsuliyyəti etiraf etmək əvəzinə "Tavuş istiqamətində ciddi hərbi-strateji uğur qazanmaları" barədə raport verir. Bu, 3-cü ordunun korpus komandiri, polkovnik Qriqori Xaçaturova (KTMT-nin sabiq baş qərargah rəisi, sabiq baş katib, hazırda istintaq altında olan Yuri Xaçaturovun oğluna) general-mayor hərbi rütbəsi verilməsi ilə, habelə Ermənistanın müxtəlif kütləvi informasiya vasitələrində Azərbaycan ilə sərhəddə guya 140 hektar ərazinin azad edilməsi barədə çoxsaylı feyk məlumatın yayılması ilə təsdiqlənir.

Lakin erməni təbliğat-təşviqat maşını bununla da kifayətlənmir. Ermənistanın xüsusi xidmət orqanlarındakı kuratorları tərəfindən istiqamətləndirilən erməni KİV-ləri, həmçinin erməni diasporu tərəfindən səxavətlə sponsorluq edilən xarici medialar (məsələn, Hollandiyanın "bellingcat.com" saytı), yenə də Göbbelsin "yalan nə qədər dəhşətli olsa, kütlə ona bir o qədər həvəslə inanır" fikrini rəhbər tutaraq Azərbaycan tərəfi guya Gürcüstan ərazisinə müdaxilə etməkdə təqsirləndirərək Gürcüstanı da bu məsələyə cəlb etməyə çalışırlar. Bu halda bir neçə məqsəd güdülür: Azərbaycan-Gürcüstan münasibətlərinə nifaq salmaq; Gürcüstanı öz ərazisindən Ermənistana qarşı istifadə edilməsi məqsədilə həmin ərazini Azərbaycana verməkdə günahlandırmaq; özlərinin Gürcüstan ərazisini tutmaq planları üçün zəmin hazırlamaq. Bunu təsdiq edən müxtəlif bəyanatlar var: əgər Gürcüstan özü tədbir görməsə, Ermənistan öz ərazisinə qarşı təhlükənin qarşısını istənilən vasitələrlə almaq hüququnu saxlayır; Ermənistanın özü tərəfindən Gürcüstan torpaqlarının tutulmasını ört-basdır etmək - bu işğal nəticəsində Gürcüstan ərazisində on minlərlə kvadratmetr ərazi, o cümlədən Gürcüstandakı Xucabi monastrı erməni silahlı dəstələrinin nəzarəti altına düşüb. Gürcüstanın "kavkazplus.com" saytı bu il 5 noyabr tarixli materialda bu barədə ətraflı yazıb (http://kavkazplus.com/-news.php?id=26929#.XccFpDMzbIU).

Bu insunasiyalar fonunda iyulun 14-də Azərbaycan-Gürcüstan dövlət sərhədindəki "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində Azərbaycan sərhədçilərinə qarşı törədilmiş provokasiya yada düşür. Bu provokasiyanın təşkilatçılarının və icraçılarının niyyətinə görə o, gürcü vətəndaşları arasında çoxsaylı tələfata gətirib çıxarmalı və bununla da Azərbaycan-Gürcüstan münasibətlərini əhəmiyyətli dərəcədə mürəkkəbləşdirməli idi. Yalnız Azərbaycan sərhədçilərinin şüurlu və misilsiz təmkinli davranışı sayəsində bu mürəkkəb, süni şəraitdə yaradılmış və israrla qızışdırılan vəziyyəti idarə etmək mümkün oldu.

Böyük ehtimalla demək olar ki, Azərbaycanın Ermənistan və Gürcüstan ilə sərhədində yuxarıda göstərilən hadisələr arasında birbaşa əlaqə olub. Yetərincə əsaslandırılmış bu fərziyyəni həmin hadisələr barədə erməni mətbuatında dərc olunmuş materialların adi təhlili ilə də təsdiqləmək olar.

Proseslərin inkişafının sadə məntiqi göstərir ki, Azərbaycan-Gürcüstan münasibətlərinin pisləşməsində marağı olan yeganə region dövləti Ermənistandır. Burada onu da xatırlamaq yerinə düşər ki, Ermənistanın Azərbaycanla Gürcüstanı savaşdırmağa çalışması ilk dəfə deyil. 2017-ci il yanvarın 11-də "panarmenian.net" saytında dərc edilmiş "Azərbaycan təqribən 1000 hektar ərazini işğal edərək Gürcüstan ərazisində dayaq məntəqələri qurub" sərlövhəli material buna sübutdur (http://www.panarmenian.net/rus/-news/229791/).

XXI əsrdə, hər hansı informasiyanın əlçatan olduğu şəraitdə öz məğlubiyyətini müzəffər qələbələr kimi qələmə vermək cəhdləri üstündə dayandığı budağı kəsməyə bənzəyir.

# Nəsimi rayon məktəbliləri "Ölkəmizi tanıyaq" tur-aksiyasına çıxdı





***Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, 13-16 noyabr 2019-cu il tarixlərdə "Ölkəmizi tanıyaq" devizi ilə yeniyetmələrin respublikamızın müxtəlif rayonları ilə tanışlığı üçün növbəti maarifləndirici tur-aksiyası təşkil olunub. Tur- aksiyasına qoşulan Nəsimi rayon məktəbliləri Gəncə-Şəmkir - Göygöl rayonlarına səfər edib.***

Tur-aksiyası ilə bağlı Nəsimi rayon məktəbliləri ilə rayon icra hakimiyyətində məktəb direktorlarının, valideynlərin, veteranların və ictimaiyyət nümayəndələrinin iştirakı ilə görüş keçirilib. Görüşdə çıxış edən Nəsimi rayon icra hakimiyyətinin başçısı Asif Əsgərov şagirdlərə turun məqsədi barədə məlumat verərək bildirib ki, ölkə başçısı İlham Əliyevin gənc nəslin tərbiyəsi, onların savadlı, vətənpərvər böyüməsi və fiziki inkişafı istiqamətində gördüyü işlərdən danışaraq, bu kimi turların təşkilinin də həmin tədbirlər çərçivəsində olduğunu vurğulayıb: "Ölkə Prezidenti İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan regionların, şəhər və rayonlarımızın yeniləşən siması ilə şəhər məktəblilərinin yaxından tanış olması onlarda xüsusi təəssüratlar yaradacaqdır".

A.Əsgərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təhsilin, səhiyyənin, mədəniyyətin, idmanın inkişafına, ekologiyanın qorunmasına diqqəti, hər il ölkə vətəndaşlarının pulsuz müayinəyə cəlb olunması, şəhid və əlil ailələrinə, qaçqın və məcburi köçkünlərə, aztəminatlı ailələrə, internat və qocalar evlərində yaşayanlara qayğısını xüsusi vurğulayıbdır. Rayon rəhbəri bildirib ki, tur-aksiya zamanı məktəblilərin Gəncə şəhərində Qədim Qala divarlarına, Nizami Gəncəvinin məqbərəsinə, Nizami Gəncəvi adına mərkəzə, Cavad xan Məqbərəsinə, Cümə məscidinə, Şah Abbas məscidinə, Xan bağına, Amfiteatra, Gəncə Dövlət Filarmoniyasına , Gəncə Bulvarına, Gəncə Avtomobil Zavoduna, Göygöl rayonunda Hacıkənd qəsəbəsi və Göygöl Milli Parkına, Şəmkir rayonunda Abidələr Parkına, İstiqlal Parkına, "Nəfis"çörək zavoduna, Şəmkir Aqroparkına ekskursiyaları təşkil olunacaqdır. Həmçinin, bu şəhərlərdə Heydər Əliyev Mərkəzinə, Gənclər Mərkərinə, Bayraq Meydanına, tarix diyarşünaslıq muzeylərinə və digər tarixi yerlərə də səfərləri təşkil olunacaqdır: "Ölkəmizi tanıyaq" tur-aksiyasında iştirak üçün rayonun orta məktəblərində təhsil alan, öz təhsili və nümunəviliyi, ictimai həyatda fəallığı ilə fərqlənən 40 nəfər şagird seçilmişdir".

Tədbirdə iştirak edən məktəblilər "Nəsimi İli" ilə bağlı dahi şairin qəzəllərindən ibarət hazırlanmış kompozisiya və "Ölkəmizi tanıyaq" mahnısını qonaqlara təqdim ediblər. Tədbirin sonunda 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin kollektivinin təqdim etdiyi konsert proqramı tədbir iştirakçılarında, valideynlərdə və məktəblilərdə xoş ovqat yaradıb.

Sonda tədbir iştirakçıları xatirə şəkilləri çəkdirdilər.

***Rəfiqə HÜSEYNOVA***

# Müxalifət icazəsiz aksiyalarla məkrli qüvvələrin sifarişlərini yerinə yetirir

***AXCP-nin ardınca Müsavat partiyası da icazəsiz aksiya keçirməklə, Bakı şəhərində ictimai-siyasi sabitliyi pozmağa cəhd etdi. Sual yaranır, nəyə görə müxalifət daha çox icazəsiz aksiyalara və daha çox qarşıdurmalara iğtişaşlara meyil göstərir? Söhbət etdiyimiz müsahiblərimizin birmənalı mövqeyi ondan ibarət oldu ki, müxalifətə xarici qüvvələr tərəfindən tapşırıq və göstəriş olduğundan, onlar pozuculuq aktları törətməyə cəhd göstərirlər.***

### "Yurddaş" partiyasının sədri Mais Səfərli: "Müxalifət fəaliyyətini sifariş əsasında qurur"



- Bu gün müxalifətin qara niyyət güdməsində məqsəd aydındır. Yəni bu, Azərbaycanda qarşıdurma yaratmaq, stabilliyi pozmaqdan başqa bir şey deyil. Əgər doğruda da, bunların hansısa bir deyiləsi sözləri varsa və mitinq keçirmək istəyirlərsə onlara yer ayrılıb və gedib orada keçirə bilərlər, amma bunu etmirlər. Bunları icazəli yox, daha çox icazəsiz aksiya keçirməyə üstünlük verirlər. Bu da, kütləvi aksiya keçirməkdən daha çox, stabilliyi pozmağa yönələn bir istəyidir. Nəyə görə onlar, ayrılmış yerdə kütləvi aksiya keçirmək istəmirlər? Çünki onların sosial bazası yoxdur, onları dəstəkləyən insanların sayı kifayət qədər deyil ki, böyük bir stadionda kütləvi aksiya keçirsinlər. Bunlar şəhərin sıx olduğu və insanların nəqliyyatdan istifadə etdiyi yerlərdə pozucu aksiyalar keçirməyə çalışırlar. Deməli olar ki, müxalifət düşərgəsini təmsil edən şəxslərin bu cür hərəkətləri bir müddət gündəmdə qalmaq və cəmiyyətin diqqətini cəlb etməyə hesablanıb. Ümumiyyətlə, bu günə qədər müxalifət tərəfindən bir çox aksiyalar keçirilib, amma hər dəfə də aksiyalar uğursuzluğa düçar olub. Bu da, bir daha sübut edir ki, müxalifətin xalq tərəfindən heç bir dəstəyi yoxdur və bundan sonra da olmayacaqdır.

### Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "Müxalifət gündəmdə qalmaq üçün yersiz hərəkətlərə əl atır"

- Müxalifətin xalq tərəfindən hər hansı bir siyasi dəstəyi yoxdur ki, onlar özləri üçün nə isə edə bilsinlər. Müxalifət təmsilçiləri gündəmdə qalmaq və diqqət mərkəzinə çevrilmək üçün yersiz hərəkətlərə əl atırlar. Ümumiyyətlə, bu şəxslərin bu cür hərəkətlərə əl atması, etik cəhətdən düzgün deyil. Yəni öz dövlətinə qarşı hər hansı xarici dövlətlərin maraqlarından çıxış etmək və öz dövlətinə qarşı mübarizə aparmaq və o dövlətə qarşı fəaliyyət göstərmək, həm qanunvericiliyə ziddir, həm də etik cəhətdən yolverilməzdir. Söz yox ki, müxalifətin bu cür hərəkətlərə əl atması, heç vaxt onlara başucalığı gətirən deyil. Əksinə, onları daha da gözdən salır.



Bununla belə, onların nə etmələrindən və nə istəmələrindən asılı olmayaraq, heç vaxt həmin şəxslərin ölkəmizlə bağlı pozucu planları baş tutmayıb və tutmayacaqdır. Ümumiyyətlə, bu kimi şəxslər belə yersiz hərəkətləri ilə gündəmə gəlmək və xarici qüvvələrə özlərini reklam etmək istəyirlər ki, qarşılığında maddi yardım alsınlar. Bu isə, utancverici haldır.

### TOHGMİB-nin sədri Emin Həsənli: "Sifariş olmasa, müxalifət hərəkət etməz"



- Bu gün heç kəsə sirr deyil ki, xaricdə bəzi qüvvələr var ki, həmin qüvvələr Azərbaycanın əldə etdiyi uğurlara köləgə salmaq istəyir. Xarici məkrli qüvvələr öz çirkin məqsədlərinə çatmaqdan ötrü, daxildəki erməni xislətli müxalif qüvvələrdən bir vasitə kimi istifadə etməyə çalışırlar. Yəni AXCP-nin ardınca Müsavat partiyasının da icazəsiz aksiya keçirtməklə, ölkədə ictimai-siyasi sabitliyi pozmağa cəhd etməsi, xarici sifarişin məhsuludur. Çünki sifariş olmasa, müxalifət hərəkət etməz. Bu gün müxalifət düşərgəsini təmsil edən şəxslərin özləri də, çox yaxşı bilirlər ki, onlar tərəfindən keçirilən bu cür aksiyaların heç bir nəticəsi olmayacaqdır. Çünki xalq artıq müxalifətin yersiz hərəkətlərindən yorulub və atılan bu cür addımları da pisləyir. Yaxşı olardı ki, müxalifət bu cür yersiz hərəkətlərindən əl çəksinlər. Əks-təqdirdə, bu, onların özləri üçün pis olacaqdır.

**GÜLYANƏ**

## Kabildə partlayış olub, yeddi nəfər həlak olub

Kabildə Əfqanıstan Daxili İşlər Nazirliyinin binası yaxınlığında minalanmış avtomobilin partladılması nəticəsində azı yeddi dinc sakin həlak olub, bir o qədər insan da yaralanıb.

1TV News telekanalı xəbər verir ki, bu barədə nazirliyin mətbuat katibi Nasrat Rahimi bildirib. Partlayış yerli vaxtla saat 7:25-də qeydə alınıb. Yerli hakimiyyət orqanları həlak olanların sayının artacağından ehtiyatlanır. Partlayış zamanı World Guard xarici mühafizə şirkətinə məxsus avtomobilə ziyan dəydiyi, şirkətin dörd əməkdaşının yaralandığı bildirilir. Zərərçəkənlər arasında uşaqlar da var. Hələlik heç bir qruplaşma partlayışın məsuliyyətini üzərinə götürməyib.

# Müsavatçılar özlərini bir daha biabır etdilər

*Arif Hacılının icazəsiz piketi ona baha başa oturacaqmı?*



***Məlum olduğu kimi, Müsavat partiyası BŞİH-dən mitinq keçirmək üçün yer istəmişdi və bu dövlət qurumu partiyanın aksiyası üçün Lökbatan stadionunu təklif etmişdi. Lakin partiyanın rəhbərliyi, xüsusilə, başqan Arif Hacılı ayrılan yerlə razı olmadığını bəyan edərək, paytaxtda ictimai sabitliyi pozmaq üçün cəhdlər göstərdi. Yəni BŞİH-in qarşısında icazəsiz piket keçirməyə çalışdı. Lakin sosial şəbəkələrdə edilən çağırışlara baxmayaraq, piketə ümumilikdə 15 nəfər adam qatıldı və azsaylı müsavatçıların ictimai asayişi pozmaq cəhdlərinin qarşısını hüquq-mühafizə orqanları aldı.***

### Müsavat partiyasının başqanı Arif Hacılının çağırışından sonra onun səsinə cəmi-cümləsi 15 nəfər səs verdi

Son vaxtlar bu kimi cəhdlərin baş verməsi arxasında dayanan məsələlərdən biri də radikalizm yolunu tutmuş müxalifətin müxtəlif xarici təşkilatlardan aldıqları sifarişlərdir. Artıq bu faktdır və danılmazlığı ilə sübuta yetirilib. Radikallara verilən sifarişin tərkib hissələrindən biri də budur ki, hətta hakimiyyət onlara mitinqlər keçirmək üçün müvafiq yerlər ayırsa belə, onlar buna etiraz etməli, məhz şəhərin mərkəzində siyasi aksiyaların keçirilməsi tələbini irəli sürməlidirlər. Halbuki radikallar buna qədər də dəfələrlə şəhərdən kənar yerlərdə BŞİH tərəfindən təyin olunmuş yerlərdə mitinqlər keçiriblər. Bunu görən anti-Azərbaycan xarakterli xarici qüvvələr radikal müxalifətdən istifadə etməklə, mövcud ictimai sabitliyi, asayişi pozmaq üçün çirkin və məkrli planlarını işə salmağa çalışırlar. Ancaq göründüyü kimi, bu da onlarda alınmır, çünki xalq kiçik və başıpozuq kütlənin, eləcə də, bu kütlənin "liderlərinin" çağırışlarını birmənalı olaraq rədd edir. Necə ki, noyabrın 12-də Müsavat partiyasının başqanı A.Hacılının çağırışından sonra onun səsinə cəmi-cümləsi 15 nəfər səs verdi...

### Təşkilatın divan və məclisinə, həmçinin, başqanlığına keçirilən seçkilərdəki saxtakarlıqları, sözün əsl mənasında, öz "bəhrələrini" verir

Bu, həm də onu sübuta yetirdi ki, artıq Müsavat partiyası rəhbərliyinin, nəinki ictimai rəydə, eyni zamanda, öz tərəfdarları arasında da heç bir təsir imkanı yoxdur.

Yeri gəlmişkən, bu, Müsavat partiyasının, xüsusilə, başqan A.Hacılının son iki ayda ikinci və belə gedərsə, davamlı uğursuzluğunun bariz isbatıdır. Belə ki, partiyanın növbəti qurultayında A.Hacılının və eks-başqan İ.Qəmbərin müdaxilələri, təşkilatın divan və məclisinə, həmçinin, başqanlığına keçirilən seçkilərdəki saxtakarlıqları, sözün əsl mənasında, öz "bəhrələrini" verir. Müsavatın sıraları sürətlə seyrəlir və yarpaq tökümü bir neçə ildir ki, davam edir. Belə olan halda, bu partiyanın nə başqanı, nə də adı siyasi arenada heç bir üstünlük qazanmır, əksinə, sürətlə geriləyir və ya siyasi məhvə doğru irəliləyir.

Beləliklə, fakt budur ki, müsavatçıların 15 nəfərlik və biabırçı icazəsiz piket keçirmək cəhdləri həm də A.Hacılıya baha başa oturacaq. Hətta onun öz postundan istefa verməsi tələbləri də baş qaldıracaq ki, bu da, həm onun özünün, həm də bütövlükdə, Müsavatın siyasi sonluğu üçün ölüm akkordu olacaq.

**Rövşən RƏSULOV**

## BŞBPİ: Bakıda yolu bağlayaraq avtomobillərə və vətəndaşlara hücum edən şəxslər saxlanılıblar

Sosial şəbəkələrdə yayılan videogörüntülərdə yolu bağlayaraq avtomobillərə və şəxslərə hücum edən naməlum şəxslər tərəfimizdən müəyyən olunaraq saxlanılıblar. Bunu Bakı Şəhər Baş Polis İdarəsinin mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev AZƏRTAC-a açıqlamasında bildirib. E.Hacıyev qeyd edib ki, noyabrın 12-də saat 22:45 radələrində Sabunçu rayonunun Bakıxanov qəsəbəsində iki nəfər naməlum şəxsin yolu bağlayaraq oradan keçən avtomaşınlara və şəxslərə hücum etmələri barədə Daxili İşlər Nazirliyinin 102 - Zəng Xidmətinə məlumat daxil olub. Araşdırma zamanı bu əməli törədən şəxslərin 1994-cü il təvəllüdlü Eldəniz Təmrazlı və 1992-ci il təvəllüdlü Şəhriyar Hadili olduqları müəyyən edilib. Onlar ərazi üzrə Sabunçu Rayon Polis İdarəsinin 13-cü polis bölməsinə gətiriliblər. Hər iki şəxsin orta dərəcəli sərxoşluq vəziyyətində olmaları müəyyən edilib.

E.Hacıyev deyib ki, həmin şəxslərin əməlində inzibati xətanın tərkib əlamətləri olduğuna görə, onların barəsində İnzibati Xətalar Məcəlləsinin 535.1-ci maddəsi ilə protokol tərtib edilərək, Sabunçu Rayon Məhkəməsinə göndərilib.

## Gəncə sakininin evindən bir kiloqramdan çox marixuana götürülüb

Daxili işlər orqanlarının əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində növbəti uğurlu əməliyyat tədbiri keçiriblər.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Gəncə Şəhər Baş Polis İdarəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini S.Əliyevin idarə etdiyi "Lada-Priora" markalı avtomobilə baxış zamanı oradan 295 qramdan artıq marixuana aşkarlanıb. Davam etdirilən tədbirlərlə S.Əliyevin evindən isə əlavə olaraq 1 kiloqramdan çox marixuana aşkarlanaraq götürülüb. Faktla bağlı araşdırma aparılır.

# Düşmənin yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır

### Erməni yanlısı Leyla Yunus, görəsən, indi nə istəyir?



"Sülh və Demokratiya İnstitutu"nun rəhbəri Leyla Yunus yenə də köhnə ampluasındadır. Elə bu günlərdə Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının aktiv iştirakçılarından olan "Amnestye İnternational"ın "siyasi məhbus"la bağlı qərəzli çağırışına səs verən L.Yunus yenə də vətən xaini, satqın və ermənilərlə iş birliyi qurduğunu bir daha nümayiş etdirdi. Əslində, Leyla Yunusun kim olduğunu, hansı əməllərə sahiblik etdiyini, hansı dairələrə xidmət etdiyini xatırlatmağa ehtiyac yoxdur. Bu deyim yerinə düşərsə, onu bütün dünya tanıyır. Onun daxilində yaşadığı, çörəyini yediyi dövlətə və xalqa qarşı patoloji nifrət formalaşıbdır.

L.Yunus müxtəlif vaxtlarda başqa anti-Azərbaycan layihələrinə də imza atıb. Məsələn, o, ermənilərlə iş birliyinə imza atmışdı. Özünü "hüquq müdafiəçisi" kimi qələmə verən bu şəxs Böyük Britaniyanın Azərbaycan və Ermənistandakı səfirliklərinin dəstəyi ilə ermənilərlə birgə yeni sayt yaratdı. Layihə Ermənistandakı "Region" Araşdırma Mərkəzi ilə birgə icra olunur.

Vaxtilə Azərbaycanın Müdafiə Nazirliyinin Analitik İnformasiya Şöbəsinə rəhbərlik etmiş bu xanım həmin illərdə müdafiə naziri Rəhim Qazıyevin "sağ əli" hesab olunurdu. Həmin illərdə Azərbaycanın başına açılan oyunlar, Rəhim Qazıyevin Qraçovla anlaşması, sonradan Surət Hüseynovun qiyamına dəstək verməsi, heç kimin yadından çıxmayıb. Sonrakı dövrlərdə siyasi fəaliyyətə cəhd edən Leyla Yunus bundan bir şey çıxmayacağını görüb, özünü "hüquq müdafiəçisi" kimi sınamağa qərar verdi. Azərbaycanda "siyasi məhbus" məsələsinin şişirdilməsi, hakimiyyətə qarşı təzyiq rıçaqına çevrilməsi də onun "xidmətləri" sırasındadır. L.Yunusun hazırladığı "siyasi məhbus" siyahıları bu gün də Azərbaycana təzyiq üçün əllərdə gəzir.

### Erməni xislətli satqın Leyla Yunus indi nə istəyir?

İstədiyi bəllidir. Ancaq və ancaq uğurla və sürətlə inkişaf edən Azərbaycanda siyasi sabitliyi pozmaq. Rəzil və bədbəxt. Bu yerdə yadıma bir köhnə lətifə düşdü. Demək, Makedoniyalı İsgəndərlə İran şahı Dara arasında müharibə gedir və Daranın ordusundakı filin belinə mancanaq qoyulur. Həmin mancanaqdan guppagupla atəş açılır və İsgəndərin ordusu məğlub olur. İsgəndər də növbəti döyüş üçün düşməni Daranın fil fəndindən istifadə etmək istəsə də, fil tapa bilmir və vəziri ona filin dəvə ilə əvəzlənməsini məsləhət görür. Ancaq haradan dəvə gətirirlərsə, mancanaq belinə qoyulan kimi həmin dəvənin beli ağırlığa tab gətirməyərək qırılır. Axırda bir böyük nər tapılır və onun beli mancanağı saxlayır. Beləliklə, növbəti müharibədə İsgəndər Daraya qalib gəlir.

Lakin müharibədən sonra İsgəndər fərman verir ki, belində mancanaq daşıyan dəvə bundan sonra kimin ərazisinə girib nə etsə, onunla kimsənin işi olmamalıdır. Əks halda, dəvəni iqcidənin boynu vurulacaqmış. Dəvə də sanki bunu bilirmiş kimi, xurmalıqlara və meyvə bağlarına girib, insanlara ziyan vurur. Bir gün də gedib çıxır bazara və Ərəbistandan kişmiş gətirən bir tüccarın kişmişlə dolu xurcunundakı keşmişləri yeməyə başlayır. Ərəb istəyir dəvəni qovsun və bu zaman yerli sakinlərdən biri ona deyir ki, bəs dəvənin boynundan asılan fərmanı oxusun. O da çar-naçar qalıb, malının gözünün qarşısında hədər getməsini izləməyə başlayır və birdən durub tərəzinin gözlərini götürərək, bir-birinə vurmağa başlayır ki, dəvə hürksün. Bu zaman yanındakı yerli sakin gülməkdən yerə yıxılır. Ərəb də soruşanda ki, niyə gülür, yerli sakin cavabında ərəbə deyir ki, bu dəvənin belində bir neçə ay mancanaq atılıb, sən də onu tərəzinin gözlərini dınqıldada-dınqıldada qorxutmağa çalışırsan...

İndi, həmin bu satqın L.Yunus həmin o bədbəxt ərəbə dönüb, bu satqınlıqla nəyəsə nail olacağını sanır. Ancaq unudur ki, bu dövlətin ayaqda qalması, müstəqilliyinin qorunması, güclənməsi üçün daha hansı ağır sınaqlardan keçilməyib və bələləri öz ucuz "siyasətləri" ilə heç vaxt bu faktora təsir göstərmək gücündə deyillər.

### Dələduz Leyla Yunus

Bu, o Leyla Yunusdur ki, hər zaman öz xalqına nifrət edərək, Azərbaycan dilini yalnız söyüş söymək üçün bir vasitə hesab edib. Özü də dəfələrlə etiraf edib ki, Azərbaycan dilində ancaq söyməyi bacarır. Adını "hüquq müdafiəçisi" qoyan bu canlı həşarət zaman-zaman dələduzluq və cinayət əməlləri (vergi ödəməkdən yayınma, qanunsuz sahibkarlıq, saxta vəsiqələrin hazırlanması, yaxud bu cür sənədi satma, saxta dövlət təltifinin, möhürün, blankın hazırlanması, satılması və s.) törətməkdən də çəkinməyib. Bunları 2015-ci ilin avqustunda Leyla Yunusun və onun həyat yoldaşı Arif Yunusun məhkəməsi də sübuta yetirdi. Heç bir şübhə yoxdur ki, leyla yunusları hər zaman öz şəxsi, cılız, dar və korporativ mənfəətləri düşündürüb.

### Elşən Musayev: "Xarici dairələr həmişə Azərbaycanda L.Yunuslar yetişdirməyə çalışıb"

Millət vəkili Elşən Musayev bildirir ki, L.Yunus kimilər Azərbaycanın deyil, Ermənistanın uğurlarına seviniblər: "L.Yunus tək deyil, bu gün Azərbaycanda çoxlu sayda ona bənzərlər var: "Xarici dairələr həmişə Azərbaycanda L.Yunuslar yetişdirməyə çalışıb. Biz yeni L.Yunusların yetişməməsi üçün həssas olmalıyıq. Bələləri Azərbaycana qarşı ermənidən də betərdir".

Millət vəkili, onu da vurğulayıb ki, xainlərə güzəşt olmamalıdır! L.Yunus kimilər dövlət tərəfindən əfv olunsalar da, yenə də öz əxlaqsızlıqlarını nümayiş etdirirlər. Çünki L.Yunusun mahiyyəti və xisləti budur. Bu adamın genetik erməni bağlılığı var və demək olar ki, həmin genetika əsl gerçəyi ədalətı - azərbaycanlı-erməni qarşıdurması fonunda faktiki reallığı inkar etmək gücündədir.

**R.HÜSEYNOVA**

## Müdafiə Nazirliyi: Monitorinq insidentsiz başa çatıb



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, noyabrın 13-də Tərtər rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçiriblər. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Oqnyen Yoviç və Gennadi Petrika aparıblar.

## Sumqayıtda beş marketdən seyf oğurlayan şəxslər tutulub

Sumqayıtda marketlərdən silsilə oğurluqlar edən şəxslər şəhər polis idarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şəhər sakinləri Elnur Bağırov və Emin Nəzərov tutularaq istintaqa təqdim ediliblər. Araşdırma zamanı onların müxtəlif vaxtlarda Sumqayıt şəhərində xüsusi texniki vasitələrlə qorunmayan 5 marketdən içərisində pul olan seyflər oğurladıqları məlum olub. Dəstə üzvləri mağazalara daxil olan zaman sonradan ifşa olunmamaları üçün obyektlərdəki müşahidə kameralarının yaddaş bloklarını da özləri ilə götürüblər. Emin Nəzərov və Elnur Bağırov seyflərdən bir neçəsini marketlərin içində açsalar da, digərlərini özləri ilə aparıblar. Onlar seyfləri açandan sonra izi itirmək məqsədilə Sumqayıt şəhərindəki su hövzələrindən birinə atıblar. Dəstənin üzvü Elnur Bağırov həmin mağazalar şəbəkəsində əvvəllər kassir işlədiyi üçün oğurluq etmək təklifini də o edib. Faktlarla bağlı Sumqayıt Şəhər Polis İdarəsinin istintaq şöbəsində cinayət işi başlanıb, əməliyyat-istintaq tədbirləri davam etdirilir.



## Sosial şəbəkə əxlaqsızı

**RƏFİQƏ**

***Bilirəm, bəlkə də təəccüb edəcəksiniz. Deyəcəksiniz ki, bu, nə əxlaqsızlıqdır? Ancaq çoxları anladı ki, dağıdıcı düşərgə deyilən məkanda olanların çoxu elə bu yolun yolçusudur. Yəqin ki, bu ifadənin kimə aid olduğunu başa düşdünüz. Əli Kərimlidən danışırıq. Özünün siyasi fəaliyyətini büsbütün sosial şəbəkələr üzərində quran bu satqın və əxlaqsız AXCP sədri Ə.Kərimlidən ki, gecəli-gündüzlü çalışır. Çalışır ki, qaşınmayan yerdən qan çıxarsın. Hətta şeytanla da "işbirliyi quran" bu satqın ermənixislətli casus Ə.Kərimli erməni üfunəti gələn bütün deşiklərdən çıxır.***

Deyəndə də deyir ki, mən "xalqın dərdindən" bu yola düşmüşəm. Yalansa, sənin zatına lənət! Nə deyim. Məgər xalq görmür ki, sən nə qədər iyrənc, əxlaqsız və mənəviyyatsızsan. Sən heç bilirsən ki, "XALQ" nə deməkdir?! Bir də Ə.Kərimli nə bilir "zat" sözü nədir, onda qala "xalq" sözünün mənasını "dərk" edə. Ə.Kərimli kimi zatıqırıqlar, ancaq Azərbaycanın ildırım sürəti ilə, bəli, ildırım sürəti ilə uğurlarını görüb içi iylənə-iylənə qalaraq, sosial şəbəkələrdə yenidən çağırışlar etməklə, camaatı mitinqlərə çıxarmağı bacarır. Nəticədə, nə əldə edir? Ancaq elə sosial şəbəkələrdə hay-küy salmaq. Baxın, əgər yadınızdadırsa, manatın dollara nisbətdə ucuzlaşmasında öz xeyri üçün istifadə etməyə cəhd göstərən Ə.Kərimli burada süni ajiotaj yaratmaq məqsədini, əsas olaraq hədəf götürdü. Onun ardınca, ölkəmizdə həyata keçirilən ardıcıl inqilabi-sosial islahatlar paketi, real nəticələri görüb, bu uğurlardan qaşınmaya düşən bu əxlaqsız Azərbaycan xalqı tərəfindən nifrətlə qarşılandı. Xalq onun xəyanətlərinə görə cəzalandırılması tələbi ilə çıxış edir. Bu fərd isə hər dəfə oxu daşa dəydikcə, sosial şəbəkələrdə daha çox hay-küy salır. Anlamır ki, xalq Ə.Kərimli kimi satqın və əxlaqsızı çoxdan zibilliyə atıb, üstündən də bir təpik vurub ki, bəsdir!!! Batsın adın, batsın səsin!!!

Ancaq qozbeli qəbir düzəltsə də, görünür, bu xəyanətkar satqın və əxlaqsızı heç qəbir də düzəltməyəcək. Çünki əyri doğulan, əyri də qalacaq. Bax, buna görə də deyirəm, səsin batsın, ay şəbəkə əxlaqsızı!

Deyəndə ki, Ə.Kərimli şeytanla "iş birliyi quran"dır, bunu da elə-belə demirəm. Baxın, hər şey bir yana, bu adam illərdir Azərbaycanın Avropaya inteqrasiyasının vacib olduğunu təbliğ edir, hakimiyyəti bu məsələdə gecikməkdə ittiham edir, günü bu günsə, öz mövqeyinə tam əks-mövqe sərgiləyir. Sual olunur: kimin əlinə oynayırsan, Əli Kərimli?

Bir də, haqq nazilər, amma üzülməz. Bu fikri deməyə haqqım var. Çünki 26 ildən bəri erməni yalı ilə yemlənən sən Əli Kərimli cinayətkarın, Vətən xaininin adını "siyasi məhbus" qoyaraq, başlayırsan onun müdafiəsinə. İndi də qarşıdakı bələdiyyə seçkiləri ərəfəsi və son illər Azərbaycanın sürətli uğurunu görüb ürəyi partlayan, gözləri kor olan Ə.Kərimli və Müsavat başqanı Arif Hacılı indi də başlayıblar mitinq və piket çağırışları etməyə. Necə deyərlər, "isti aşa soyuq su tökmək" buna deyirlər. Belə olan yerdə "LƏNƏT OLSUN" deməyim, nə deyim? Xəstə, mafioz sosial şəbəkə əxlaqsızları, BATSIN SƏSİNİZ, LƏNƏT OLSUN SİZLƏRƏ!!!

Sosial şəbəkə xəstələri, onu da unudurlar ki, anti-Azərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib, özgə yalı ilə yallanmaqla heç nəyə nail ola bilməyibsiniz və bundan sonra da nail ola bilməyəcəksiniz. Çünki Vətənin halal çörəyinə kəm baxanın gözlərinə qan damır və özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri isə tarix heç vaxt bağışlamır.

# Vətəndaş cəmiyyəti təşkilatları və insan haqları

***Vətəndaş cəmiyyəti təşkilatları demokratik idarəetmə dəyərlərinin təbliği və inkişaf gündəliyinin müəyyənləşdirilməsində önəmli rol oynayırlar. Onlar vətəndaşların narahatlıqlarının eşidilməsinə şərait yaradır, qurumların şəffaflığını və hesabatlığını təşviq edir, habelə, insan hüquqları və əsas azadlıqlarını təbliğ edirlər. Həyata keçirilən siyasətlərin inklüzivliyini və səmərəliliyini təmin etmək üçün onların hazırlanması və icrası proseslərində vətəndaş cəmiyyəti təşkilatlarının iştirakı tələb olunur. Milli və qlobal səviyyəli vətəndaş cəmiyyəti institutları inkişafın bir sıra aspektləri üzrə öz potensiallarını və təsir qabiliyyətlərini gücləndirmişdir. Vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq inkişafa yardım proqramlarının əhalinin, xüsusən, təcrid olunmuş və həssas qrupları üçün nəticələrinin səmərəliliyinə müsbət təsir göstərə bilər.***

BMTİP bir çox sahələrdə, o cümlədən, proqramların icrası, siyasətlərin hazırlanması və təşviqi sahəsində vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq edir. BMTİP vətəndaş cəmiyyəti təşkilatlarının çox zaman həm inkişaf siyasətlərinin istiqamətləndirilməsində hərəkətverici qüvvə, həm də siyasətlərin icra olunmasını təmin etmək üçün müşahidəçi institut kimi çıxış etdiyini qəbul edərək, 2030-cu il gündəliyinin icrasının bütün aspektlərində vətəndaş cəmiyyətinin iştirakına dəstək göstərir. Avropa İttifaqı:

Avropa İttifaqı yaxşı idarəçilik və hesabatlılığın təmin olunmasında vətəndaş cəmiyyətinin rolunu dəstəkləyir. Vətəndaş cəmiyyətinin siyasətlərin hazırlanması və icrası proseslərində iştirakı vətəndaşların real ehtiyaclarına uyğun inklüziv və səmərəli siyasətlərin təmin olunması üçün vacibdir. Vətəndaş cəmiyyəti, daha məsuliyyətli və hüquqi dövlətlərin qurulmasına töhfə verməklə, sosial birliyin güclənməsinə və ədalətli dayanıqlı inkişafa gətirib çıxarır. O, icma əsaslı inkişafa dəstək göstərərək, habelə, əhalinin həssas qruplarının imkanlarını genişləndirərək, sabitliyin artmasına töhfə verir.

Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramının birgə həyata keçirdiyi "Əhalinin həssas qruplarının sosial-iqtisadi hüquqlarının təmin olunmasında vətəndaş cəmiyyətinin rolunun gücləndirilməsi" proqramı çərçivəsində yerli vətəndaş cəmiyyəti təşkilatları tərəfindən icra olunmuş 12 layihə barədə məlumatlar yer alır. Bu mövzuda nəşr olunmuş kitabda layihələrin nəticələrinin təsvir olunması ilə yanaşı, insan hüquqları, bərabərlik və ayrı-seçkiliksiz mühitin təbliğ və müdafiə olunmasına yönələn təşəbbüslərin uğur qazanmasında vətəndaş cəmiyyəti təşkilatlarının oynadığı dinamik və çoxtərəfli rola xüsusi diqqət yetirilir. "Əhalinin həssas qruplarının sosial-iqtisadi hüquqlarının təmin olunmasında vətəndaş cəmiyyətinin rolunun gücləndirilməsi" proqramının strukturu iki komponentdən ibarətdir: Komponent 1.Tərəfdaş VCT-lərin təşkilati inkişafı və şəbəkələşdirilməsi VCT-lərin ölkənin inkişaf gündəliyinə töhfə vermək potensialları güclü olsa da, onlar eyni zamanda, potensialla bağlı müəyyən çətinliklərlə üzləşirlər. BMTİP tərəfdaş vətəndaş cəmiyyəti təşkilatlarının təşkilati inkişaf baxımından ehtiyaclarını müəyyən etmək üçün potensialla bağlı ehtiyacları qiymətləndirmişdir. Qiymətləndirmənin nəticələri və tərəfdaş vətəndaş cəmiyyəti təşkilatlarının xüsusi ehtiyacları əsasında proqram çərçivəsində altı sahə üzrə silsilə təlimlər keçirilib: i) ictimaiyyətlə əlaqələr və təşviqat; ii) gender və Dayanıqlı İnkişaf Məqsədləri; iii) insan hüquqlarına əsaslanan yanaşmalar; iv) monitorinq və qiymətləndirmə; v) təşkilati idarəetmə; və vi) innovasiya və sosial müəssisələr. Bu proqram çərçivəsində, həmçinin, proqramın icrası zamanı əldə olunan təcrübələr, qarşıya çıxan çətinliklər və öyrənilmiş dərslərlə bağlı bilikləri bölüşmək üçün bütün tərəfdaş vətəndaş cəmiyyəti təşkilatlarının şəbəkələşmə platforması qismində müntəzəm görüşlər keçirilib. Komponent 2: Vətəndaş cəmiyyəti təşəbbüslərinin icrası proqram müddəti boyunca, tərəfdaş VCT-lər Azərbaycanın müxtəlif hissələrində həssas qrupların, o cümlədən, qadınların, uşaqların və gənclərin, əlilliyi olan şəxslərin, azadlıqdan məhrum edilən şəxslərin və əlverişsiz sosial vəziyyətdə olan digər qrupların hüquqlarını təbliğ və müdafiə etmək üçün 12 layihə həyata keçirib. Sözügedən layihələr bu nəşrin növbəti bölmələrində təsvir olunur. 35, 84, 2106, 2261, 5668, 220, 32, 411, 227 Siyasət sənədlərinin sayı / analitik sənədlər /, tədqiqatlar, Təlim keçmiş şəxslərin sayı, Yaşayış şəraiti yaxşılaşmış insanların sayı, İcma təşəbbüsləri üçün ayrılmış kiçik qrantların sayı İnformasiya məhsullarının sayı (təlimatlar, dərsliklər, alət dəstləri, təlim resursları və s.). Pulsuz hüquqi / psixoloji yardım / xidmətlər almış insanların sayı, Dolanışıq şəraiti yaxşılaşmış insanların sayı (ailə üzvlərini də əhatə edir) Məlumatlandırmə kampaniyalarında iştirak etmiş insanların sayı 6, Bakı, Sumqayıt, Xaçmaz, Quba, Oğuz, Qəbələ, Göyçay, Mingəçevir, Şəki, Qax, Zaqatala, Balakən, Samux, Gəncə, Şirvan, Səlyan, Lənkəran 7, Proqramın xəritəsi, Proqram nəticələrinə Ümumi nəzər, Avrasiya Əməkdaşlıq Fondu, Azərbaycan İnsan Hüquqları Müdafiə Mərkəzi, Demokratiya Monitoru, "Hüquq və İnkişaf" İctimai Birliyi, İqtisadi və Sosial İnkişaf, Mərkəzi İnkişaf Naminə Təşəbbüs İctimai Birliyi, İnternyus Azərbaycan Konstitusiya Araşdırmalar Fondu, Mingəçevir Valideynlər Assosiasiyası, Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti, "Uluçay" Sosial-İqtisadi İnnovasiya Mərkəzi Yerli İdarəetməyə Yardım İctimai Birliyi 8, 9, Layihənin adı: İnkişaf və idarəetmədə strateji əməkdaşlıq və əlaqələndirmə, Başlama tarixi: oktyabr, 2016, Başa çatma tarixi: may, 2018, Büdcə: 123, 080 avro. Layihənin icra olunduğu yer: Quba, Xaçmaz, Mingəçevir, Şirvan, Hədəf qruplar: VCT-lər, QHT Resurs mərkəzləri, mərkəzi və yerli icra hakimiyyəti orqanları, bələdiyyələr. Son benefisiarlar. Əhali Layihə tərəfdaşı: Quba, Mingəçevir və Şirvan Regional QHT-lərin Resurs və Təlim mərkəzləri. Əlaqələndirici şəxs: Nailə Həşimova, nhashimova@epfound.az. LAYİHƏ MƏLUMATLARI Avrasiya Əməkdaşlıq Fondu İslahat Proqramına təsir göstərmək üçün VCT-lərin səlahiyyətlərinin genişləndirilməsi. PROBLEM. Azərbaycanda VCT-lər çox zaman siyasət sənədləri və büdcələrin hazırlanması prosesinə əhəmiyyətli təsir göstərə bilmir. Onlar, həmçinin, öz inkişaf, strategiya və planlarını hazırlayarkən, onların əhalinin prioritetlərinə uyğunluğunu və səmərəli şəkildə icrasını təmin edə bilmirlər.

## LAYİHƏNİN MƏQSƏDİ

Layihənin ümumi məqsədi əhalinin həssas qruplarının sosial-iqtisadi hüquqlarının yaxşılaşdırılmasında və inklüziv cəmiyyətin, bərabərliyin və ayrı-seçkiliyə yol verilməməsinin təşviqində vətəndaş cəmiyyətinin rolunu gücləndirməkdir. Layihənin xüsusi məqsədləri aşağıdakılardır:

a) yerli VCT-lərin sosial-iqtisadi siyasətlərin hazırlanması və icrasına təsirini artırmaq; b) əhalinin hədəf regionlarda yaşayan həssas qruplarının hüquqlarının müdafiəsinin təşviqində vətəndaş cəmiyyəti təşkilatlarına dəstək göstərmək; c) VCT-lər arasında vətəndaş iştirakının təmin edilməsi ilə bağlı bacarıqları inkişaf etdirməklə, uzunmüddətli perspektivdə layihənin təsirinin dayanıqlılığını təmin etmək. LAYİHƏ TƏDBİRLƏRİ. Layihə çərçivəsində həyata keçirilən fəaliyyətlər Bakı şəhərindən kənarda yerləşən VCT-lərə istiqamətləndirilib. Layihə ekspertləri yerli VCT-lərin və üç Regional QHT Resurs və Təlim Mərkəzinin təşkilati potensialla bağlı boşluqlarını qiymətləndirib və bu boşluqların aradan qaldırılması üçün təlimlər və texniki yardım təmin olunub. AƏF yerli səviyyədə VCT-lərin fəaliyyətinə əngəl olan əsas amilləri müəyyən etmək üçün sahə tədqiqatı həyata keçirib. AƏF regional streategiyanın hazırlanması və əlaqələndirilməsini müzakirə etmək üçün 3 regional tematik seminar və 3 tematik əlaqələndirmə görüşü təşkil edib. AƏF, həmçinin, VCT-lər üçün vətəndaş iştirakının təmin edilməsi ilə bağlı bacarıqlara dair təlimat kitabçası hazırlayıb. Layihə yerli VCT-lərin 35 təşkilatı bir araya gətirən İnkişaf və İdarəetmədə Strateji Əməkdaşlıq və Əlaqələndirmə üzrə Vətəndaş Cəmiyyəti Platformasında (VCP) birləşməsinə və yerli Açıq Hökumət Platforması (AHP) ilə koalisiya formalaşdırmasına kömək edib. AHP hökumətlə VCT-lər arasında rüblük görüşlər keçirir və VCT-lərə yeni təşkilati, şəbəkələşmə, siyasət tədqiqatı və təşviqat imkanları və resurslarına çıxış əldə etmək imkanı verir. Bununla yanşı, layihə VCT-lərin həyata keçirdiyi doqquz kiçik miqyaslı layihəyə maliyyə dəstəyi göstərib. Bu layihələr su təchizatı və suvarmanın yaxşılaşdırılması, göstərilən kommunal xidmətlərin təkmilləşdirilməsi, inklüziv təhsilin, məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və ətraf mühitin mühafizəsi üzrə yerli tədbirlərlə bağlı olub. Bundan əlavə, AƏF yerli VCT-lər tərəfindən qaldırılan sosial-iqtisadi məsələlərə daha böyük ictimai diqqət çəkmək üçün ictimai maarifləndirmə kampaniyasına start verib. LAYİHƏNİN NƏTİCƏLƏRİ. Layihə 24 yerli VCT-nin layihələrin yazılması, strateji kommunikasiya, tədqiqat metodologiyaları, təşviqat, şəbəkələşmə və digər sahələrdə təşkilati potensiallarını gücləndirməyə kömək edib. VCP və AHP-nin koalisiyası mütəmadi toplantılar keçirərək müəlumat mübadiləsi, yerli məsələlərin müzakirəsi və yeni təkliflərin irəli sürülməsi üçün əlverişli platforma təmin edir. Yerli VCT-lər tərəfindən icra edilmiş kiçik miqyaslı layihələr icmalara müxtəlif dövlət xidmətlərinin göstərilməsindəki müəyyən çətinliklərin aradan qaldırılmasında köməklik göstərib. İçməli suya çıxış imkanı və onun keyfiyyəti ilə bağlı tədqiqat və Mingəçevir Regional QHT-lərin Resurs və Təlim Mərkəzi tərəfindən görülmüş təşviqat işləri məsələni yerli və mərkəzi icra hakimiyyəti orqanlarının diqqətinə çatdırmağa kömək etmiş, Mingəçevirdə su təchizatının yaxşılaşdırılması ilə bağlı verilmiş Prezident Sərəncamı bu sahədə mövcud problemlərin həllinə imkan verəcək. Yerli "Aran" İnsan Hüquqları Mərkəzi Şirvan şəhərində yaşayış binalarının baxımı və təmirinə məsul olan yerli orqanların işinin standartlaşdırılmasına önəmli töhfə verib və bu, həmin orqanların dövlət və ictimai monitorinqini daha da şəffaflaşdırıb. "VCP-AHP platforması QHT-lərin sosial problemlərin həlli ilə bağlı yeni təşəbbüslərinə açıqdır. Biz dövlət orqanlarının fəaliyyətinə ictimai nəzarətin artırılmasında QHT-lərlə əməkdaşlıq etməyə hazırıq". Vahid Həsənov Sabirabad RİH başçısının müavini "Yerli QHT-lər üçün keçirilmiş təlim və seminarlar, təşkilatımız üçün kifayət qədər faydalı olub.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*



## BSU-da “Avro-2020 Könüllülər Proqramı”nın təqdimatı keçirilib



Bakı Slavyan Universitetində Azərbaycan Futbol Federasiyaları Assosiasiyası tərəfindən futbol üzrə Avro-2020 Könüllülər Proqramı”nın təqdimatı keçirilib.

Tədbiri giriş sözü ilə açan CBC-nin aparıcısı Əminə Kazımova Avropa çempionatının tarixi və bununla bağlı maraqlı faktlardan danışıb. Tədbirdə çıxış edən könüllülərin ümumi rəhbəri Yusif Vəliyevə könüllülük fəaliyyətinin cəmiyyətdə vacibliyi haqqında tələbələrə geniş məlumat verib.

Sonda “Avro-2020 Bakı Könüllülük Proqramı”nın səfiri Taleh Yüzbəyov çıxış edərək, tələbələrlə səmimi söhbət aparıb və onların könüllülük proqramı ilə bağlı suallarını cavablandırıb. BSU-nun tələbələri təqdimatla yaxından maraqlanıb və könüllülük proqramına qoşulmaq istədiklərini bildiriblər.

***ZÜMRÜD BAYRAMOVA***



## “Ölkəmizi tanıyaq” devizi altında Qaradağ rayon məktəbliləri qərb bölgəsinə səfər edib



***Dünən “Ölkəmizi tanıyaq” devizi altında Qaradağ rayon məktəbliləri Qərb bölgəsinə səfər edib. Səfərdən öncə, məktəblilər rayonun mərkəzində ucaldılan Ulu Öndər Heydər Əliyevin abidəsi önünə güllər düzərək, əziz xatirəsini yad ediblər.***





Lökbatan qəsəbəsində yerləşən Heydər Əliyev Mərkəzində rayon icra hakimiyyətinin əməkdaşlarının, ziyalıların, məktəb direktorlarının, valideynlərin iştirak etdiyi tədbirdə Qaradağ rayon icra hakimiyyəti başçısı Süleyman Mikayılov çıxış edərək bildirib ki, Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin “Ölkəmizi tanıyaq” devizi altında vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyalarının təşkil olunması, artıq ənənə halını almışdır: “Layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.” S.Mikayılov onu da vurğulayıb ki, tur-aksiya çərçivəsində 13-16 noyabr tarixlərində Qaradağ rayonundan olan 40 məktəbli Gəncə-Şəmkir-Göygöl istiqaməti üzrə səfər edəcək və eyni zamanda, tarixi məkanlarla, yeni tikililərlə yaxından tanış ola biləcəklər: “Gəncə şəhərində Qədim Qala Divarları, Gəncə Tarix-Diyarşünaslıq Muzeyi, “İmamzadə” Kompleksi, Nizami Gəncəvinin Məqbərəsi, Şəmkirdə “Orta əsr Şəmkir şəhəri”, Alman kilsəsi, “İstiqlal” Parkı, Göygöldə Heydər Əliyev Mərkəzi, Bayraq Meydanı, Göygöl Milli Parkı və digər məkanlara ekskursiya şagirdlərin yaddaşında silinməz iz qoyacaq”.

Tədbirdə çıxış edən müəllimlər, valideynlər, məktəblilər ölkə başçısı İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın onlara göstərdiyi diqqət və qayğıdan məmnun olduqlarını bildirib və gənc nəsil üçün yaradılan şəraitdən söz açıblar.

Sonda məktəblilər rayon icra hakimiyyətinin əməkdaşları, rayon ictimaiyyəti, müəllimlər və valideynlərin iştirakı ilə Gəncə, Şəmkir və Göygöl istiqamətinə təntənəli şəkildə yola salınıblar.

***R.KAMALQIZI***

## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya ixtisası üzrə IV kurs tələbəsi İsmayılova Günel Namiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

X X X

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təhsildə Sosial-psixoloji xidmət ixtisası üzrə III kurs tələbəsi Mustafayeva Günay Baba qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

X X X

**Yasamal RPİ tərəfindən İsgəndərova Klara Tahir qızına verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

X X X

**ADPU-nun “Filologiya” fakültəsinin IV kurs tələbəsi Cabaylı Qələmnaz Cabir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**